QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 180 (5652) **25 sentyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Monqolustan Azərbaycanla əlaqələrə böyük önəm verir

*Azərbaycan və Monqolustan prezidentlərinin görüşü olub*



Səh 2


Prezidentin çıxışı tarixi hadisədir



3

Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



4

"12-13 il ərzində Azərbaycanda yoxsulluq həddi 50 faizdən təxminən 5 faizə endirilib"



5

"Diario la Economia": Azərbaycan Qafqazın incisidir



5

Orduxan Teymurxan rus kəşfiyyatının agenti imiş - sensasion və mötəbər faktlar



9

DSX-nin Sahil Mühafizəsi dənizdə batmaq təhlükəsi ilə üzləşmiş dörd nəfəri xilas edib



4

6

Ermənistan mətbuatını qonşu ölkələrin inkişafı qıcıqlandırır



8

"Made in Azerbaijan" brendini necə tanıdırıq?

MADE IN AZERBAIJAN

16

Azərbaycan millisi 3-cü ardıcıl qələbəsini qazanıb



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

25 sentyabr 2018-ci il

# Monqolustan Azərbaycanla əlaqələrə böyük önəm verir

## *Azərbaycan və Monqolustan prezidentlərinin görüşü olub*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 24-də ölkəmizə işgüzar səfərə gələn Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Monqolustan Prezidentini qarşılayıb. Sonra birgə foto çəkdirilib. Daha sonra dövlət başçılarının görüşü olub. Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa:***



-Cənab Prezident, bizim bir çox vətəndaşlarımız, xüsusilə idmançılarımız, güləşçilərimiz Bakıdakı çempionatda iştirak edirlər. Onların hamısı böyük məmnuniyyətlə qeyd edirlər ki, ölkəniz möhtəşəm inkişaf edir. Onlar bunu öz gözləri ilə görürlər. Biz yerə enərkən təyyarədən görünürdü ki, siz çoxlu ağac əkmisiniz, çox təmiz küçələriniz var, çoxlu sayda müasir binalar, idman qurğuları inşa edilib. Bütün bunlar





daha çox gəncin idmana yiyələnməsi üçündür və bu, böyüyən nəslin tərbiyəsinə müsbət təsir göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev:

-Cənab Prezident, Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz.

Seçkilərdə qələbə münasibətilə məni təbrik etmək üçün zəng vuranda söhbət zamanı biz Bakıda görüşməklə bağlı razılığa gəldik. Mən Sizi dəvət etdim. Şadam ki, Siz Bakıya gəlmisiniz. Siz tanınmış cüdoçusunuz, buna görə də yarışları izləmək Sizin üçün maraqlı olacaq.

Bu görüş bizim ikitərəfli gündəliyimizi, əməkdaşlığımızı gücləndirmək, o cümlədən idman sahəsində qarşılıqlı fəaliyyəti inkişaf etdirməklə bağlı bir çox məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı fürsətdir. Siz qeyd etdiniz ki, burada çox idman qurğuları var. Bu, belədir. Biz son zamanlar çoxlu idman obyektləri, stadionlar inşa etmişik və nəticələr çox yaxşıdır. Bizim idmançılarımız Rio de Janeyrodakı Olimpiadada 18 medal qazanıblar və idmanın bir çox növlərində, o cümlədən cüdoda da yaxşı nəticələr göstərirlər. Bir daha xoş gəlmisiniz. Mən əminəm ki, Azərbaycana səfəriniz Sizin üçün xoş olacaq.



Görüşdə iqtisadi, kənd təsərrüfatı, ticarət, investisiya, turizm, informasiya-kommunikasiya texnologiyaları, tranzit daşımalar, humanitar, təhsil, xalçaçılıq və Monqolustan tərəfinin Azərbaycan peykinin imkanlarından istifadəsi və "ASAN xidmət" təcrübəsinin bölüşülməsi ilə bağlı məsələlər müzakirə olundu.

Söhbət zamanı, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı. Sonda xatirə şəkli çəkdirildi.

# Prezidentin çıxışı tarixi hadisədir

## *Azərbaycan Prezidentinin Parlamentin 100 illiyi münasibətilə Milli Məclisdə etdiyi çıxış Azərbaycanın keçdiyi inkişaf yoluna verilən ən dəqiq siyasi qiymətdir*

***Məlum olduğu kimi, sentyabrın 21-də Milli Məclisdə Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və xaricdən dəvət olunmuş çoxsaylı qonaqlar iclasda iştirak ediblər.***

Dövlət başçısı keçirilən görüşdə geniş çıxış edərək, Azərbaycanın keçdiyi inkişaf yoluna, həm də onun bugünkü gücünə geniş və əhatəli siyasi qiymət verib. Həmin çıxışı zamanı dünya ictimaiyyətinə, həm də Ermənistan hakimiyyətinə ciddi mesajlar ünvanlayıb.

Milli Məclisdə Prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasındakı çıxışı Azərbaycan xalqının haqlı olaraq öz Prezidenti ilə fəxr etdiyini bir daha sübut etdi.

Prezident parlamentdəki çıxışında Azərbaycanın tarixindən və bu günündən danışaraq, ölkəmiz haqqında tam fikir formalaşdırmaqla yanaşı, eyni zamanda, ölkəmizin təcavüzə məruz qaldığını bildirməklə müxtəlif nüfuzlu təşkilat və ölkələrin nümayəndələrinin diqqətini, məhz bu problemə yönəltdi. Bu, həm də onun göstəricisidir ki, Azərbaycan əzəli torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq.

Ölkə rəhbəri, dünyanın 50-yə yaxın ölkəsindən 150 nümayəndə heyətinin parlament zalında iştirakını nəzərə alaraq, Ermənistanın işğalçılıq siyasətindən danışdı: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb-yaradıb. Bu torpaqların tarixi toponimləri, tarixi abidələri, bizim milli irsimiz onu göstərir ki, bu torpaqlarda Azərbaycan xalqı əsrlər boyu yaşayıb. Bu gün bu torpaqlar işğal altındadır. Nəinki Dağlıq Qarabağ, onun ətrafında yerləşən yeddi rayon da Ermənistan tərəfindən işğal edilib. Bu torpaqlarda bütün infrastruktur dağıdılıb. Dağıdılmış şəhərlərimizin şəkilləri internetdə dərc edilir, bunu hər kəs görə bilər. Bizim bütün milli sərvətimiz, muzeylərimiz ermənilər tərəfindən talan edilib, tarixi abidələrimiz və məscidlərimiz dağıdılıb. Azərbaycan xalqına qarşı hərbi cinayət törədilib. Xocalı soyqırımı törədilib, bir gecə ərzində ermənilər 600-dən çox günahsız insanı, o cümlədən, 100-dən çox qadını, 60-dan çox uşağı vəhşicəsinə qətlə yetiriblər. Bu gün 10-dan çox ölkənin parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb və bu proses bundan sonra da gedəcəkdir".

Ölkə Prezidenti çıxışı zamanı onu da vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi qəbul olunub: "Bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Ermənistan 20 ildən çoxdur ki, bu qətnamələrə əməl etmir, onlara məhəl qoymur və beləliklə, öz işğalçılıq siyasətini davam etdirir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar da Ermənistana qarşı heç bir sanksiya tətbiq etmir. Hesab edirəm, bunun vaxtı gəlib çatıb ki, işğalçıya qarşı çox ciddi tədbirlər görülsün və bu, ədaləti olardı. Bu məsələ ilə bağlı biz beynəlxalq təşkilatların fəaliyyət mexanizmlərinə də fikir verməliyik. Əgər dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmirsə, onda, əlbəttə ki, bu orqanın nüfuzu o qədər də yüksək səviyyədə ola bilməz. Münaqişənin həllinin bir yolu var. Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızdan çıxarılmalıdır, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və ondan sonra bölgədə sülh yarana bilər. Azərbaycanın ərazi bütövlüyü isə bütün dünya tərəfindən tanınır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir".



### "Bundan sonrakı dövrdə Ermənistanın yeni rəhbərliyi bu məsələ ilə bağlı öz siyasətində ciddi düzəlişlər etməlidir"

Dövlət başçısı çıxışı zamanı Ermənistana nəticə çıxarmaq və düz yola gəlmək üçün şans verdi: "Mən hesab edirəm ki, bundan sonrakı dövrdə Ermənistanın yeni rəhbərliyi bu məsələ ilə bağlı öz siyasətində ciddi düzəlişlər etməlidir. Çünki bu gün Ermənistandan səslənən çox ziddiyyətli və bəzən cəfəng fikirlər münaqişənin həllinə yox, onun dərinləşməsinə xidmət göstərir. Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından da Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir.

Münaqişəyə, böyük humanitar fəlakətə baxmayaraq, - bir milyondan çox insan bu münaqişədən əziyyət çəkir, - Azərbaycan inkişaf yolundadır, Azərbaycanın inkişafı çox sürətlidir". Prezident İlham Əliyev Azərbaycanın bu inkişafı faktoru qarşısında Ermənistanın ağır bir durumda yaşadığını, getdikcə daha da zəiflədiyini bildirib: "Ermənistanda bu ilin yazında baş vermiş çevriliş, əslində, göstərir ki, əvvəlki rejim xalqın dəstəyini tam itirmişdir. İyirmi il Ermənistana rəhbərlik etmiş rejim çökdü və bu, bir daha onu göstərir ki, onların işğalçılıq siyasəti iflasa uğradı. Eyni zamanda, beynəlxalq təşkilatlar da bu məsələ ilə bağlı gərək ciddi təhlil aparsınlar və özlərinə sual versinlər ki, necə ola bilər, Ermənistanda son müddət ərzində keçirilmiş parlament və prezident seçkilərinə beynəlxalq müşahidəçilər müsbət reaksiya vermişlər. Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər kobudcasına saxtalaşdırılır? Bilmirdilər ki, orada əvvəlki rejimin hörməti sıfıra bərabərdir? Bilirdilər, ancaq hansısa səbəblərə görə göz yumurdular. İndi də Ermənistanda yaranmaqda olan yeni diktatura rejimi demək olar ki, eyni siyasəti aparır. Siyasi rəqiblərə qarşı zorakılıq həyata keçirilir, siyasi rəqiblər həbsə alınır, mətbuat nümayəndələrinə qarşı repressiyalar aparılır, mətbu orqanlar bağlanır, dövlət orqanları siyasi rişlər verir, bu göstərişləri bütün dünya eşidir. Bir dənə də olsun beynəlxalq təşkilat, xüsusilə, mətbuatla, media azadlıqları, insan haqları ilə bağlı olan təşkilatlar səsini çıxarmır".

### "Bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ikili standartlar siyasəti aparılır"

Prezident İlham Əliyev Ermənistanda gedən bu təhlükəli proseslərə beynəlxalq təşkilatların reaksiya vermədiyini, bəzi beynəlxalq təşkilatların ikili standartlar apardığını da vurğulayıb: "Bunun arxasında hansı səbəblər var? Bu, çox ciddi araşdırılmalıdır. Biz onsuz da, yaxşı bilirik ki, bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ikili standartlar siyasəti aparılır. Biz buna öyrəşmişik və buna qarşı mübarizə aparırıq. Bizim mübarizəmiz çox tutarlı arqumentlərlə dəstəklənir. Bayaq qeyd etdiyim kimi, deputatlarımız bizə qarşı aparılan çirkin kampaniyalarla bağlı öz sözlərini tutarlı arqumentlərlə deyirlər. Bizə qarşı irəli sürülən ittihamlar 100 faiz saxtadır, yalandır, ikili standartlar əsasındadır və siyasi məqsədlər güdür. Onu da, bildirməliyəm ki, bu hücumlar, bu ittihamlar bizim siyasi iradəmizə zərrə qədər təsir etmir və etməyəcək. Amma Ermənistan açıq-aşkar repressiya siyasətini aparır, medianı boğur, siyasi opponentlərini həbsə alır, baş nazir onların həbsi ilə bağlı göstəriş verir və buna heç bir reaksiya verilmir. Bu, çox düşündürücü məsələdir və hesab edirəm ki, beynəlxalq təşkilatlar bizim bu sualımıza mütləq cavab verməlidirlər. Verməsələr, deməli, onlar bu yeni yaranan diktatura rejimi ilə əlbirdirlər".

Ölkə Prezidenti, həmçinin, Azərbaycanın uğurla inkişaf etdiyini və inkişaf üçün çox gözəl perspektivlər olduğunu da vurğulayıb: "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Qoy, Ermənistan bu xülyalarla yaşamasın. Qoy, Ermənistan rəhbərliyi öz xalqını aldatmasın. Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Qeyd etdiyim kimi, beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Təkcə BMT Təhlükəsizlik Şurası deyil, BMT-nin Baş Assambleyası, ATƏT, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Bu il Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Tərəfdaşlıq Prioritetləri adlı sənəddə Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü dəstəklənir. Bu, Avropa İttifaqının mövqeyidir. Qonşu dövlətlər bizim ərazi bütövlüyümüzü tanıyır və dəstəkləyir".

### Ermənistan uğursuz dövlətdir

Azərbaycan Prezidenti 20 il ərzində Ermənistanı xunta rejiminin idarə etdiyini və uğursuz bir dövlətə çevrildiyini də qeyd edib: "Ermənistan uğursuz dövlətdir. Əgər bir ölkəni 20 il ərzində kriminal xunta rejimi idarə edibsə, - müstəqilliyi cəmi 26 il olan dövlətdən söhbət gedir, - onda bu dövlətə hansı adı vermək olar? Ancaq uğursuz dövlət. Bu uğursuzluq, əslində, onların işğalçılıq siyasəti nəticəsində olmuşdur. Çünki əgər işğalçılıq siyasəti olmasaydı, onlar Azərbaycanın imkanlarından faydalana bilərdilər. Azərbaycansız bölgədə heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz və getdikcə bizim gücümüz - siyasi çəkimiz, iqtisadi potensialımız, hərbi gücümüz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Bu gün bizim siyasətimiz, - mən bunu bir daha demək istəyirəm, bu, sirr deyil, - Ermənistanı tam təcrid edilmiş vəziyyətə salmaqdır, iqtisadi dayaqlarını, - ona dayaq da demək olmaz, - çökdürməkdir. Nəyə görə? Çünki biz torpaqlarımızı istəyirik. Bizə deyirlər ki, məsələni sülh yolu ilə həll edin. Biz də çalışırıq ki, bunu edək. Amma bunu etmək üçün gərək sənin qarşında adekvat bir tərəf olsun. Biz bu adekvatlığı görmürük. İndi Ermənistanın qeyri-adekvat addımları, hərəkətləri, yüksək kürsülərdən səslənən bəyanatları bu ölkəni daha da ağır vəziyyətə salacaq".

### "Bax, budur bizim uğurlu xarici siyasətimiz ki, bu gün daxili inkişafımıza da müsbət təsir göstərir"

Azərbaycan Prezidenti çıxışı zamanı Azərbaycanın əldə etdiyi bu uğurların düzgün və məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi dəyərləndirib: "Bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq məsələlərlə bağlı çox uğurlu siyasət aparır, qonşu ölkələrlə əlaqələrimiz ən yüksək səviyyədədir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox böyük hörmətə layiqdir. Avropa İttifaqının üzvü olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədimiz var və bu il Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb.

Bax, budur bizim uğurlu xarici siyasətimiz ki, bu gün daxili inkişafımıza da müsbət təsir göstərir. O ki qaldı, iqtisadi sahəyə, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyat 3,2 dəfə artmışdır və bu artım bu gün davam edir. Təsadüfi deyil ki, cəmi 26 yaşı olan ölkəmiz Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir. Təsəvvür edin, dünyada 200-dən çox ölkə var. Azərbaycan 35-ci yerdədir. Rəqabətqabiliyyətliliyin hesablaması bütün sahələri əhatə edir, təkcə enerji resurslarını yox. Yenə də Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, Azərbaycan 3-cü yerdədir. Azərbaycan infrastrukturun səviyyəsinə görə, dünya miqyasında 26-cı yerdədir. Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində, xalq-iqtidar birliyi sayəsində. Ona görə bizim iqtisadi inkişafla bağlı fikirlərimiz çox ümidvericidir və çox müsbətdir".

**RƏFİQƏ KAMALQIZI**

# Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



*Sentyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"na uyğun olaraq, Nazirlər Kabinetinin növbəti iclası keçirilib.*

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının 2019-cu il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbay-



can Respublikasının 2019-cu il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə edilib.

Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasətin ölkəmizin dinamik inkişafına rəvac verdiyini vurğulayan Baş nazir Novruz Məmmədov, bu baxımdan gələn ilin dövlət büdcəsinin layihəsinin də əldə olunan nailiyyətlər zəminində, habelə dünyada gedən qlobal maliyyə-iqtisadi proseslər nəzərə alınmaqla tərtib edildiyini bildirdi. O qeyd etdi ki, layihənin hazırlanmasında dövlət büdcəsinin həmişəki kimi sosialyönümlü olması, əhalinin maddi rifahının daim yüksəldilməsi əsas götürülüb, xüsusilə qeyri-neft sektorunun inkişafına dəstək verilməsi, dövlətin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq müstəvidə nüfuzunun daha da artırılması kimi mühüm amillərə diqqət yetirilib.

Sonra gündəlikdə duran məsələlərə dair Azərbaycan Respublikası maliyyə nazirinin və Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavininin məruzələri dinlənildi. Geniş müzakirələrdən sonra qərara alındı ki, təqdim olunan büdcə layihələri bəyənilsin və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, büdcə zərfinə daxil olan sənədlər toplusu Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

# DSX-nin Sahil Mühafizəsi dənizdə batmaq təhlükəsi ilə üzləşmiş dörd nəfəri xilas edib

Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsi tərəfindən Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsi davam etdirilir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 21-də saat 10:55 radələrində DSX Sahil Mühafizəsinin "Pirallahı" sahil nəzarəti məntəqəsinə





"Çİ-3508" bort nömrəli gəzinti təyinatlı üzmə vasitəsinin mühərrikində yaranmış nasazlıq səbəbindən dörd nəfər heyət üzvünün dənizdə batmaq təhlükəsi ilə üzləşmələri barədə məlumat daxil olub.

Sahil nəzarəti məntəqəsindən alınmış məlumat əsasında DSX Sahil Mühafizəsinin dövlət sərhədinin mühafizəsi xidmətində olan "Şahdağ" tipli sərhəd gözətçi gəmisi hadisə yerinə göndərilib və saat 13:00 radələrində Çilov adasından üç mil məsafədə üzmə vasitəsi aşkarlanıb.

Üzmə vasitəsində olan heyət üzvləri - Məmmədov İbad Ramiz oğlu, İbrahimov Əhliman Əlifağa oğlu, Əmrahova Səkinə Ağəli qızı və Xankişiyeva Samirə Həsən qızı xilas edilib, üzmə vasitəsi Çilov adasının liman körpüsünə gətirilib.

# YAP-ın amalı xalqa və vətənə xidmət etməkdir

## *YAP Nizami rayon təşkilatının yaranmasının 25 illik yubileyi qeyd olunub*





Nizami rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə rayon təşkilatının yaranmasının 25-ci ildönümü münasibətilə Heydər Əliyev adına Neft Emalı Zavodunda tədbir keçirilib.

Əvvəlcə iştirakçılar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra YAP Nizami rayon təşkilatının 25 illik fəaliyyətinə həsr edilmiş film nümayiş etdirilib. Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi partiyaları arasında bərabəri olmayan bir partiyadır. YAP Nizami rayon təşkilatının da partiyanın əldə etdiyi nailiyyətlərdə böyük rol oynadığını vurğulayan S.Vəliyeva deyib: "Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı 1993-cü il sentyabrın 11-də Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun akt zalında 76 nəfərin iştirakı ilə yaranıb. Bu gün isə rayon təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından sürətlə genişlənir. Hazırda 143 ərazi ilk partiya təşkilatında 14 minə qədər partiya üzvü birləşib".

Tədbirdə çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, YAP Azərbaycanın son dərəcə ağır zamanında, ölkədəki hərc-mərcliyin baş alıb getdiyi bir dövrdə yaranıb: "Həmin illərdə Azərbaycanda bir sıra siyasi partiyalar fəaliyyət göstərsələr də, onlar arasındakı daxili çəkişmələr imkan vermirdi ki, ölkədə yaranan böhran aradan qaldırılsın. Azərbaycan müstəqilliyi itirməyə doğru gedirdi. Bunu görən, xalqının taleyinə laqeyd qala bilməyən insanlar ölkəmizin işıqlı gələcəyi naminə, yeni çağırışlara cavab verə biləcək partiya yaratmaq təşəbbüsü ilə çıxış ediblər. Bu məqsədlə Ümummilli Lider Heydər Əliyevin ətrafında sıx birləşərək, Yeni Azərbaycan Partiyasını yaratmağa nail olublar. 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə təsis konfransı keçirilib və Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi qəbul edilib, Ümummilli Lider yekdilliklə partiyanın Sədri seçilib. Beləliklə də, müstəqil Azərbaycanın yeniliyə açıq, xalqın partiyası - Yeni Azərbaycan Partiyası yaranıb".

Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, partiyanın Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil, demokratik Azərbaycan Onun müəyyən etdiyi strateji xətlə inamla irəliləyir və inkişafını davam etdiyini bildirib. O, Yeni Azərbaycan Partiyasının xalqı öz ətrafına birləşdirərək, ümumxalq partiyasına çevrildiyini, eyni zamanda, ölkədə demokratiyanın inkişafında aparıcı qüvvə kimi özünü təsdiqlədiyini bildirib. Qeyd edib ki, YAP-ın amalı xalqa, Vətənə və dövlətə sədaqətlə xidmət etməkdən ibarətdir. Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün, zamanın tələblərinə uyğun olaraq, zərurətdən yaranmış bir partiyadır: "Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilati struktur yaradaraq, avanqard siyasi qüvvəyə çevrilib. Bu isə dünənin, bu günün, gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin və etimadının dayandığını bir daha sübut edir".

Tədbirdə digər çıxış edənlər, diqqətə çatdırıblar ki, Prezident İlham Əliyevin doğma, müstəqil ölkəmizin inkişafı, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi genişmiqyaslı tədbirlər və onun real nəticələri partiyanın hər bir üzvü qarşısında daha məsul vəzifələr qoyur. Sonda YAP Nizami rayon təşkilatının yaradılmasında xidmətləri olmuş bir qrup şəxsə xatirə hədiyyələri təqdim olunub.

**NƏZAKƏT**

# "12-13 il ərzində Azərbaycanda yoxsulluq həddi 50 faizdən təxminən 5 faizə endirilib"

## Dayanıqlı ərzaq və kənd təsərrüfatının dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına töhfəsinin sürətləndirilməsi müzakirə edilib

***Bakıda dayanıqlı ərzaq və kənd təsərrüfatının dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına töhfəsinin sürətləndirilməsi müzakirə edilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (DİMƏŞ) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşəbbüsü ilə Bakıda milli seminar keçirilib. Seminar dayanıqlı ərzaq və kənd təsərrüfatının Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin nail olunmasına töhfəsinin sürətləndirilməsi mövzusuna həsr olunub.***



FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlığı çox yüksək qiymətləndirdiyini deyib. Bildirib ki, FAO Azərbaycanla 2016-2020-ci illəri əhatə edən əməkdaşlıq sazişi imzalayıb. Sazişə əsasən, yaxın zamanlarda layihələrin icrasına başlanılacaq. "Bu layihələr üzərində 2 ildir işləyirik", - deyən M.Çakmak Azərbaycanda kənd təsərrüfatında məhsuldarlığın artımı ilə yanaşı, qida təhlükəsizliyinə xüsusi diqqət yetirilməsinin önəmini vurğulayıb.

Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov qeyd edib ki, Azərbaycan hökuməti FAO ilə əməkdaşlıqdan məmnundur: "Düşünürük ki, bu əməkdaşlıq Azərbaycanda kənd təsərrüfatının inkişafına və modernləşdirilməsinə, ərzaq təhlükəsizliyi probleminin daha yüksək səviyyədə həll olunmasına öz töhfəsini verəcək. Kənd təsərrüfatının inkişafı problemləri bilavasitə dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi ilə sıx əlaqədardır".

Bildirilib ki, hökumətin həyata keçirdiyi uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda insanların qıdalanması ilə bağlı problemlər həll olunub. Azərbaycan hökuməti kənd təsərrüfatının inkişaf etdirilməsinə önəm verir. Kənd təsərrüfatının inkişafı dayanıqlı inkişaf məqsədləri ilə bilavasitə bağlıdır. Kənd təsərrüfatı məhsullarının istehsalı ümumi iqtisadi konsepsiyanın həyata keçirilməsində mühüm rol oynayır.

"Azərbaycanda əhalinin 47 faizi kənddə yaşayır. Dayanıqlı inkişaf məqsədlərində qarşıya qoyulan bir sıra hədəflər, o cümlədən işsizliyin və yoxsulluğun aradan qaldırılması, iqtisadiyyatın şaxələndirilməsi kontekstində Azərbaycanın kənd təsərrüfatının inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. 12-13 il ərzində Azərbaycanda yoxsulluq həddi 50 faizdən təxminən 5 faizə endirilib. Kənd təsərrüfatının inkişafı, ilk növbədə, kənddə yaşayan insanların həyatının yaxşılaşdırılmasına, iş yerlərinin artırılmasına, əmək məhsuldarlığının yüksəlməsinə gətirib çıxaracaq ki, bu da bütövlükdə, Azərbaycan əhalisinin ümumi yaşayış səviyyəsinin yüksəlməsinə səbəb olacaq", - deyə Baş nazirin müavini qeyd edib.



Baş nazirin müavini deyib: "Azərbaycanda ixrac potensialının artırılmasında da biz kənd təsərrüfatına böyük inamla baxırıq. Güman edirəm ki, Azərbaycanın kənd təsərrüfatı, bütövlükdə, ixrac potensialının daha da yüksəlməsinə öz töhfəsini verəcək. Kənd təsərrüfatının inkişaf etdirilməsi əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm vəzifələrdən biridir. Bunun üçün Azərbaycan hökuməti bütün qlobal layihələrdə yaxından iştirak edir".

Ölkəmizdə qeyri-neft sektoruna xüsusi diqqət yetirildiyini deyən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, bu sektorun əsas aparıcı istiqamətlərindən biri də aqrar sektordur. Azərbaycanın aqrar sahədə əldə etdiyi nailiyyətlər nümunəvi xarakter daşıyır.

Nazir qeyd edib ki, Azərbaycanın ən böyük uğurlarından biri 2001-2015-ci illərdə yoxsulluğun səviyyəsini 4,9 faizə endirməsidir. Qarşımızda duran vəzifə 2030-cu ilə kimi yoxsulluğu 0 səviyyəsinə endirməkdir.

"Kənd Təsərrüfatı Nazirliyi beynəlxalq qurumlarla, xüsusən FAO ilə sıx əməkdaşlıq edir. Hesab edirəm ki, FAO-nun Azərbaycan üçün 2016-2020-ci illər ölkə proqramı çərçivəsində nəzərdə tutulan bir sıra tədbirlərin birgə icrası dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına öz müsbət töhfəsini verəcək. Biz bu il təşkilatla konkret sahələr üzrə, o cümlədən toxumçuluq, heyvandarlıq sahəsində bir sıra layihələrin icrasını planlaşdırırıq. Bu sahədə həyata keçirilən tədbirlər birgə işimizin əhəmiyyətini daha da artıracaq. Hər iki qurum məşğulluq sahəsində "Aqrar Məşğulluğun Artırılması Layihəsi"nin birgə icrasını planlaşdırır. Bu layihə həm məşğulluğun, həm də aqrar sahədə məhsuldarlığın artırılmasına xidmət edəcək. Bundan başqa, Kənd Təsərrüfatı Nazirliyi və FAO qadınların məşğulluğunun artırılması sahəsində xüsusi proqram nəzərdə tutub",- deyə nazir vurğulayıb.

BMT-nin rezident əlaqələndiricisi Qulam İsakzai bildirib ki, hazırda dünyada 850 milyon insan aclıq içində yaşayır. Uşaqların üçdəbiri yetərincə qidalanmır. Biz çalışmalıyıq növbəti 12 ildə yoxsulluğu və aclığı azaldaq. Bu baxımdan kənd təsərrüfatı və ərzaq dayanıqlı inkişaf məqsədinin mərkəzində dayanır. Kənd təsərrüfatı bir sıra DİM-lərin əldə olunmasına kömək edir. Bitkiçilik, heyvandarlıq, meşəçilik, balıqçılıq dünyada ən iri işəgötürəndir və yoxsul əhali üçün əsas qida və gəlir mənbəyidir. 2018-ci ildə Azərbaycanın qeyri-neft iqtisadiyyatı 2,1 faiz artıb. Biz çalışırıq ki, dayanıqlı inkişaf məqsədlərinin bütün sektorlar, o cümlədən kənd təsərrüfatında nail olunmasına töhfə verək. BMT FAO ilə bu sahədə yaxından əməkdaşlıq edir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev qurumun regionlarda fəaliyyəti, aqrar sahədə mövcud vəziyyət, kənd təsərrüfatı sektorunun inkişafı barədə danışıb. Seminar sessiyalarla işini davam etdirib. Tədbirdə kənd təsərrüfatı, ərzaq, meşə təsərrüfatı və balıqçılıq fəaliyyətlərinin Azərbaycanda DİMlərə nail olunması üçün verəcəyi töhfənin artırılması yolları və lazımi tədbirlər müzakirə olunub.

# "Diario la Economia": Azərbaycan Qafqazın incisidir

***Kolumbiyanın "Diario la Economia" xəbər portalında jurnalist Xerman Enrike Nunyesin "Qafqazın incisi Azərbaycan turizmə və investisiyalara dəvət edir" sərlövhəli məqaləsi dərc olunub.***




AZƏRTAC xəbər verir ki, müəllif Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş bu məqaləsində Azərbaycanın tarixi, coğrafiyası və iqtisadi potensialı barədə ətraflı məlumat verir. O yazır ki, Qərbi Asiya ilə Şərqi Avropanın qovuşuğunda yerləşən bu gənc müstəqil ölkə 1991-ci ildən sonra əhəmiyyətli dərəcədə inkişaf edib. Azərbaycan həm öz millətini, həm də brendini təmsil edir. Bunu məsələn, "Atletico de Madrid" komandasının formasında və Formula 1 yarışlarında da görmək olardı.

Nunyesin sözlərinə görə, mübaliğəsiz demək olar ki, Azərbaycan tərəqqi paradiqmasıdır. Demokratiya və asayişin mövcud olduğu bu ölkə insan inkişafının yüksək səviyyəsi, iqtisadi tərəqqi və savadlılığın artması, işsizliyin və cinayətkarlığın aşağı səviyyəsi müşahidə olunan uğurlu bir məkandır.

Məqalə müəllifi Azərbaycanın Kolumbiyadakı müvəqqəti işlər vəkili Həmid Zeynalovun sözlərinə istinadla qeyd edir ki, Azərbaycanın iki qitə arasında yerləşməsi bu ölkənin strateji əhəmiyyətini daha da artırır. Bu, tarixən Azərbaycanda çoxsaylı mədəniyyətlərin üstünlüyünə və tolerantlığa şərait yaradıb. Məqalədə daha sonra qeyd edilir ki, dünyada iqtisadi böhranın gücləndiyi son onillikdə Azərbaycan artım dinamikasının davam etdiyi azsaylı ölkələrdən biri olub.

Hazırda ölkə rəhbərliyi turizm sektorunun inkişafını davam etdirməyə çalışır. Azərbaycanın Boqotadakı diplomatik missiyasının rəhbəri ilə söhbət zamanı Azərbaycanın iqtisadi investisiya potensialını müzakirə edən müəllif yazır ki, Azərbaycanda qeyri-neft sektoru, xüsusən kənd təsərrüfatı sektoru fəal inkişaf edir. Məqalədə Azərbaycanın balıq ovu potensialı və balıq kürüsü istehsalı mövzusuna da yer ayrılıb.

Nunyes neft-qaz sahəsi mövzusuna toxunaraq qeyd edir ki, hazırda Azərbaycanda hər gün 800 min barrel neft, "Şahdəniz" yatağından 300 milyon kubmetrə yaxın qaz çıxarılır, məşhur transmilli korporasiyalar, yeni avtomagistrallar, dəmiryol şəbəkələri fəaliyyət göstərir, qədim İpək yolu dirçəldilir.

Məqalədə daha sonra Kolumbiya ilə Azərbaycan arasında geniş iqtisadi əlaqələrin potensialından bəhs edilir. Bakı ilə Boqota arasında birbaşa aviareyslər açılması ticarəti fəallaşdırmağa və dostluq münasibətlərini daha da möhkəmləndirməyə kömək edə bilər. Müəllif qeyd edir ki, gələn il Kolumbiya Prezidenti İvan Dukenin Azərbaycana səfər etməsi gözlənilir. Həmin səfər müddətində iki ölkə arasında əməkdaşlıq və ticarət haqqında mühüm sazişlər imzalana bilər.

Azərbaycanın Kolumbiyadakı səfirliyinin mühüm təşəbbüslərindən biri də iki ölkənin sahibkarlarını, ticarət missiyalarını bir-birinə yaxınlaşdırmaq məqsədilə ikitərəfli ticarət palatası yaradılması təklifinin dəstəklənməsidir. Məqalədə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi, qısa müddət mövcud olmuş Cümhuriyyətin 100 illiyinin bu il təntənəli şəkildə qeyd olunması haqda məlumat verilir, qeyd olunur ki, Azərbaycan hələ o vaxt qadınlara hüquq bərabərliyi verib.

Nunyes Azərbaycanın Kolumbiyadakı müvəqqəti işlər vəkili Həmid Zeynalov ilə müsahibəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsini də müzakirə edib. Məqalədə göstərilir ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini işğal edib, bundan sonra bir milyona yaxın azərbaycanlı oradan qovularaq öz ölkəsində qaçqın vəziyyətinə düşüb.

# "Bu gün Azərbaycan özünün əldə etdiyi uğurlarla beynəlxalq aləmdə çox böyük nüfuza sahibdir"

***"Bu gün Azərbaycan özünün əldə etdiyi uğurlarla beynəlxalq aləmdə çox böyük nüfuza sahibdir. Bu, bir həqiqətdir ki, dünyanın əksər dövlətləri Azərbaycana etimad göstərir,bizimlə yaxından əməkdaşlıq etmək istəyir və ölkəmiz beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi tanınır. Bunun isə sadə bir səbəbi var.***

Prezident İlham Əliyev xarici və daxili siyasətdə ardıcıl və proqnozlaşdırılan siyasət həyat keçirir, milli maraqlarımızı bütün müstəvilərdə qorumağı bacarır, heç bir təzyiq və diktə ilə qərar qəbul etmir, verdiyi vədə əməl edir və sözün əsl mənasında ölkəmizin müstəqilliyini qoruya bilir." Bu fikirləri Yap.org.az saytına açıqlamasında Milli Məclisin deputatı, ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev bildirib. O qeyd edib ki, bu cür prinsipial mövqe sərgiləyən, açıq və şəffaf siyasət həyata keçirən bir ölkə şübhəsiz ki, bütün tərəfdaşların rəğbətini qazanır, dünyada nüfuzu artır və ona hər kəs hörmətlə yanaşır:

"Bütün bunlar əsas verir ki, Azərbaycan bizim hamımızın bildiyimiz ən nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etsin, beynəlxalq və regional əhəmiyyətli enerji, tranzit, infrastuktur və digər iqtisadi layihələri uğurla həyata keçirə bilsin, 155 ölkənin dəstəyi ilə dünyanın ən mötəbər təşkilatı olan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilsin.



Əgər biz Prezident İlham Əliyevin xarici siyasət kursuna baxsaq, görərik ki, Azərbaycan MDB və Avropa məkanında çox nadir və bəlkə də yeganə dövlətdir ki, öz prioritetlərini özü müəyyən edir, milli maraqlarına cavab verən tərəfdaş ölkələri və təşkilatları özü seçir, müxtəlif hərbi və siyasi bloklarla eyni məsafədə durmağı bacarır və onlarla hansı müstəviyə qədər əməkdaşlığa ehtiyac varsa, o qədər əməkdaşlıq etməyə sərbəst qərar verir.

Şübhəsiz ki, belə bir siyasi iradə və daim gözlənilən siyasi xətt öz bəhrəsini verir. Belə ki, bir-biri ilə müxtəlif mövzularda ziddiyyətli və hətta münaqişəli vəziyyətdə olan dünyanın və regionun hegemon dövlətləri olan ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, Türkiyə, İran və digərləri ilə ölkəmiz çox uğurla əməkdaşlıq edir və onların arasındakı ziddiyyətlərin milli maraqlarımıza zərər vurmasına əsla imkan vermir. Bu xarici siyasət konsepsiyasında ölkəmiz üçün çox böyük uğur həsab olunur və heç də hər kəsə nəsib olmur. Belə bir mürəkkəb geosiyasi şəraitdə milli maraqlarımıza cavab verən bu cür xarici siyasət kursunu uzun müddət davam etdirmək heç də asan məsələ deyil və bu onun arxasında Azərbaycan Prezidentinin və onun komandasının çox böyük zəhməti və yorulmaz əməyi vardır. Digər tərəfdən Azərbaycanın iqtisadi baxımdan heç kimdən asılı olmaması və özü-özünü təmin etməsi müstəqil xarici siyasətimizi şərtləndirən əsas amillərdəndir. Yəni dövlətimizin həyata keçirdiyi çoxvektorlu, milli maraqlara əsaslanan siyasəti özünü doğruldur. Bu, Azərbaycanın müstəqilliyinin, suverenliyinin təminatının və daha da güclənməsinin tək yoludur. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu yol, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasət kursu bu gün özünü tam doğruldur."

## Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin doğum gününə həsr olunmuş konfransa hazırlıq görülür



Gələn ilin yanvarında Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda görkəmli dövlət və elm xadimi Əziz Əliyevin doğum gününə həsr olunmuş elmi-praktiki konfrans keçiriləcək. Bu münasibətlə institutda hazırıq işlərinə başlanılıb.

İnstitutdan AZƏRTAC-a verilən məlumata görə, konfrans materiallarının məcmuəsi dərc olunacaq. Məcmuədə nəşr olunması üçün Azərbaycan, rus və ya ingilis dillərində məqalə və tezislər dekabrın 1-dək qəbul edilir. Məqalələrin həcmi üç, tezislərin həcmi isə bir səhifədən çox olmamalıdır: Məqalə və tezislər çap şəklində (bir nüsxə) və elektron (CD) variantında və məqalələrin xülasəsi ilə birgə təqdim edilməlidir.

## Nyu-Yorkda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü olacaq

BMT Baş Assambleyasının 73-cü sessiyasında iştirak edən Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikasının xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə sentyabrın 26-da Nyu-Yorkda görüş keçiriləcək.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin də iştirak edəcəyi görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunacaq.

# Ermənistan mətbuatını qonşu ölkələrin inkişafı qıcıqlandırır

***Rusiyada qubernator seçkiləri davam edir və ictimaiyyət tərəfindən diqqət mərkəzindədir. Seçkilərin artıq ikinci mərhələsi keçirilir və dünya ictimaiyyətinin izlədiyi qubernator seçkilərinə münasibət birmənalı deyil. Ermənistana məxsus mətbuat səhifələri seçkilərə belə öz erməni xislətindən doğan rakursdan yanaşır.***

Rusiyada qubernator seçkilərinin ikinci mərhələsinin keçirilməsinə münasibət sərgiləyərkən erməni KİV-ləri ənənəsinə sadiq qalaraq, yenə də böyük qardaşları hesab etdikləri rusları lağ atəşinə tuturlar. Ermənistana məxsus "Iragir.am" saytında qubernator seçkilərinin qeyri-adi tendensiyalarla davam etdiyi yazılır. Hətta erməni mediası Rusiyadakı seçkiləri növbəti möcüzə adlandırır və möcüzə kimi qələmə verdikləri seçkilərin bundan əvvəlkilərin davamı olduğunu vurğulayaraq, rusların seçki ənənəsini rişxənd hədəfinə çevirir.

Ermənistan mətbuatı yazır ki, Rusiyanın uzun illər davam edən seçki mexanizmi ciddi bir müvəffəqiyyətsizliyə uğrayıb. Guya ki, analitiklər hələ də bu müvəffəqiyyətsizliyin, bu uğursuzluğun səbəbini tapa bilmirlər. Əsrlər boyu rusların hər bir sahədə ənənəsinə istinad edən, hər sahədə təcrübəni, məhz ruslardan öyrənən erməni mediasının indi Rusiyanın seçki ənənəsini, seçki mexanizmini bəyənməməsi və ona ağız büzməsi çox gülünc görünür. Ermənistana məxsus xəbər saytı Rusiyada sarsıdıcı rejimin olmasını, pensiya islahatları ilə bağlı qərarların kütləni qəzəbləndirməsini səbəb kimi ortaya qoyur. Halbuki indi rusların ermənilərə münasibətdə soyuqluq



nümayiş etdirmələri, eləcə də, düşmən hesab etdikləri Azərbaycana meyilli olmaları sözügedən ölkənin kütləvi informasiya vasitələrində qıcıq doğurduğunu nümayiş etdirir.

### Qərb missionerlərinin əmrləri, tapşırıqları ilə küçə və meydanlara toplaşmaq nə demokratiya deyil, nə də buna kütləvi etiraz adını vermək olmaz

Əslində, dövlət çevrilişi ilə Nikol Paşinyanın kürsüyə oturdulduğu Ermənistanda hadisələr, daha doğrusu, kütləvi etirazlar demokratik hərəkat, demokratiyanın qələbəsi kimi təqdim olunur. Daim qul psixologiyası ilə, əcnəbilərin ssenariləri, tapşırıqları ilə oturub-duran ermənilər üçün indi də rusların deyil, Qərb missionerlərinin əmrlərinə tabe olmaları, onların tapşırıqları ilə küçə və meydanlara toplaşmaları nə demokratiya deyildi, nə də heç buna kütləvi etiraz adını da vermək olmaz. İndi nümunə kimi rusların, Rusiya kimi fövqəldövlətin gözünə kül üfürmək istəyən, ələlxüsus, Paşinyanın daxili auditoriyaya hesablanmış siyasətinə xidmət edən erməni mediası hadisələrdən siyasi dividend qazanmaq üçün istifadə etmək niyyətindədir. Maraqlıdır, erməni mətbuatı kimə nə sübut etmək fikrindədir və ümumiyyətlə, onların belə sərsəm, eyni zamanda, gülünc baxış bucağına Rusiya məhəl qoyurmu?

İndi özünü bütün dünyaya demokratiya carçısı kimi qələmə verən və bir tərəfdən də, hakimiyyətini qorumaq üçün daxili auditoriyaya hesablanmış fəaliyyət sərgiləyən Paşinyan hakimiyyətinə xidmət edən edən media hansı demokratiyadan danışa bilər? Etiraz aksiyalarını komuflyaj kimi istifadə edərək, hakimiyyət çevrilişi edən küçə nümayişçisinin sərsəm, absurd fikirlərini, bir-birinə zidd bəyanatlarını və uğursuz siyasətini tərənnüm edən erməni mətbuatı demokratiyanı bələmi başa düşür? Yaxud bu işğalçı dövlətin kütləvi informasiya vasitələri Paşinyan hakimiyyətinin özü ilə gətirdiyi fəlakəti görmürmü və bu fəlakət nə vaxtdan demokratiya hesab olunur?

Dövlətin daxilində heç bir islahat, heç bir beynəlxalq layihə, iqtisadi əməkdaşlıq, işgüzar münasibətlər olmadığı üçün, erməni mətbuatı demokratiya adlı yalnız bir sözü çeynəməkdən yorulmur ki, yorulmur. Çünki başda Nikol Paşinyan olmaqla, Ermənistan hakimiyyətinin heç bir uğurundan söhbət aça bilmir. Belə bir uğura imza atan da yoxdur. Əksinə, Ermənistanın məğlubiyyəti silsilə xarakteri alır və biri digərini əvəz edir. İstənilən sahədə böhran müşahidə olunur. Bu işğalçı dövlətin durumunu özlərinə düşmən hesab etdikləri Azərbaycanla müqaisə belə etmək ədalətsizlikdir və ölkəmiz hər sahədə dəfələrlə üstündür.

### Öz müqəddəratından qorxuya düşən işğalçılar indi də demokratiyanı alət etməyə çalışırlar

Ermənistanı, onun mediasını qıcıqlandıran, ələlxüsus, Azərbaycanın hərbi sahədə irəliləyişi və onlardan, fantastik olaraq, üstünlüyüdür. İşğalçı dövlətin mətbuatına çox yaxşı bəllidir ki, hərbi sahədə qazanılan nailiyyətlərdə Rusiya ilə əməkdaşlığın da rolu və xüsusi çəkisi böyükdür. Məhz elə buna görə də, Rusiyada və yaxud Azərbaycanda seçkilər, seçki mexanizminə hədəflənmələrini qıcıqlanmadan başqa heç cür izah etmək olmaz. Ermənistan mətbuatını qonşu ölkələrin inkişafı qıcıqlandırır. Azərbaycan Rusiya ilə ikitərəfli əlaqələri genişləndirir, hərbi sahədə sazişlər imzalanır, ölkə başçıları bir-birinin ardınca rəsmi səfərdə olurlar və bütün bunlar hər iki ölkənin inkişafına xidmət etməklə yanaşı, münasibətləri daha da dərinləşdirir. Nəticədə, Ermənistan bölgədə tam təklənmiş və sahibsiz bir vəziyyətdə, marginallaşmış durumda qalır.

Öz müqəddəratından qorxuya düşən işğalçılar indi də demokratiyanı alət etməyə çalışırlar və guya ki, Ermənistan kimi demokratik ölkə, guya ki, insan haqlarının və azadlıqlarının yüksək səviyyədə qorunduğu bir məkan toxunulmazdır. Elə bil hansısa dövlət, hətta torpaqları, məhz erməni işğalçıları tərəfindən talan olunmuş, zəbt olunmuş qonşu ölkələr öz haqlarını, zəbt olunmuş torpaqlarını onlardan tələb edərsə və bu yolda sülh danışıqlarına məhəl qoymayan, BMT və digər beynəlxalq təşkilatlar tərəfindən torpaqların qeyd-şərtsiz boşaldılması qərarlarını pozan Ermənistandan özlərinə məxsus olanı hərbi yolla geri almağa qalxarsa, sanki demokratiyaya müharibə elan etmiş olur. Hətta bu yolla ABŞ kimi bir çox dövlətləri də özlərinə tərəf çəkməyə çalışırlar. İndi Soros kimi şər iblisinin oyunlarına alət olan Ermənistan bundan da yararlanmağa cəhd edir və qonşu ölkələrdə bu iblisin demokratiya adı altında qurduğu oyunlarda iştirak etməməsinə də qıcıqlanır. Rusiya kimi fövqəldövləti, Azərbaycan kimi müstəqil, hər sahədə inkişaf edən və inkişaf yolu seçən ölkələri hədəfə almaqdansa, Ermənistan mətbuatı bu işğalçı ölkənin düşdüyü durumu və real təhlükələrini təhlil etsin. Erməni mediası, ilk öncə, fəlakətlə üz-üzə qalan Paşinyan və onun hakimiyyətini hədəfə alsın və erməni cəmiyyətinin üzləşdiyi acınacaqlı vəziyyəti ictimailəşdirsin.

*İnam HACIYEV*

# "Azərbaycan Parlamenti 100 illik çox şərəfli bir yol keçib"

***"Azərbaycan Parlamenti Azərbaycanın özü kimi 100 illik çox şərəfli bir yol keçib. Biz bu gün Azərbaycan Parlamentinin 100 illiyini ölkəmizin, müstəqilliyimizin, Azərbaycan Xalq Cümhuriyyətimizin 100 illiyi kimi təntənəli bir şəkildə qeyd edirik. Bu tarix bizim şərəf, ləyaqət, dövlətçilik, parlament ənənələri tariximizdir.***



Fəxr ediləsi, qürur duyulası, sevindirici hal bundan ibarətdir ki, bu Parlament Şərqdə ilk Demokratik Respublikanın parlamentidir. Digər tərəfdən Şərqdə ilk dəfə qadına seçmək və seçilmək hüququnun verdiyi bir parlamentdir. Mövcud olduğu gündən bu günə qədər əlbəttə ki, Azərbaycan Parlamentinin həm təntənələri, həm də keçməkeşli günləri çox olub". Bunu SİA-ya açıqlamasında millət vəkili Jalə Əliyeva deyib.

Onun sözlərinə görə, bütün dövrlərdə Sovet rejimində belə Azərbaycan Parlamenti, nümayəndələri, təmsilçiləri hər bir zaman öz dövlətlərinin mənafeyi baxımından çıxış ediblər: "Azərbaycan Parlamenti haqqında danışırıqsa, biz xüsusilə müstəqillik tariximiz, dövrü Azərbaycan Parlamenti haqqında söhbət etməliyik. Əlbəttə ki, bu parlamentin başlanğıcı 1918-ci ildə qoyulub. Biz o insanları - ilk parlamenti çağıran, təsis edən insanlarımızı qəhrəman adlandırırıq. Biz onların işini, böyük fəaliyyətini, əməyini yüksək qiymətləndiririk. Heç də təsadüfi deyil ki, ölkə başçısı cənab Prezidenti İlham Əliyev də verdiyi böyük bir tarixi Sərəncamla böyük qədirbilənlik ortaya qoydu və Azərbaycan dövləti və Azərbaycan Demokratik Respublikasının Parlamentini yaradanların xatirəsini əbədiləşdirmək və həmin günlərə bir daha dönmək üçün çox əhəmiyyətli tarixi Sərəncam verdi. Azərbaycan Parlamentinin 100 illiyinin təntənəli şəkildə qeyd edilməsi də həmin tədbirlərin bir davamıdır. Azərbaycan Parlamentinin xüsusilə də 1990-cı illərdən sonra Azərbaycan öz müstəqilliyini elan etdiyi tarixdən etibarən keçdiyi yol çox əhəmiyyətlidir. Çünki bu bizim ən yeni tariximizdir və müstəqillik tariximizlə bərabərdir. Həmin illərdə Azərbaycanın hansı problemlərlə qarşılaşdığını hər birimiz bilirik.

O dövrdə məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycan Parlamentinə rəhbərlik etməsi, ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlməsi sayəsində Azərbaycan yox olmaqdan, məhv olmaqdan qurtuldu. Beləcə Azərbaycan Parlamenti özünün yeni tarixini yazmağa başladı. Ümummilli Lider Heydər Əliyevlə birlikdə başlayan yeni işıqlı, parlaq, təmiz bəmbəyaz səhifələrini yazmağa başladı. Bu gün də Parlamentimiz böyük şərəflə öz fəaliyyətini davam etdirir. Azərbaycan Parlamenti sağlam düşüncəli insanların oturduğu bir yerdir. Azərbaycan Parlamenti dövlətini həddindən artıq çox sevən, dövlətçiliyinə bağlı olan, Prezidentinə bağlı olan insanlardılar. Parlamentimizdə müxtəlif partiyaların nümayəndələri var. Amma bütün bu insanların, deputatların hər birini bir yerdə birləşdirən bir amal var o da Azərbaycanın bütövlüyü, bugünkü xoşbəxtliyi və gələcək işıqlı sabahıdır. Bu amal naminə biz hər birimiz cənab Prezidentimizin yanındayıq və onun dönməz ordusunun əsgərləri olaraq özümüzü hesab edirik. Cənab İlham Əliyevin Azərbaycan Parlamentindəki bugünkü çıxışına görə də ayrıca təşəkkür edirik. Dövlət başçısı bizim fəaliyyətimizə qiymət verdi. Onun sözləri bizim üçün çox əhəmiyyətli və qiymətli idi. Fəxr edirik ki, biz Azərbaycan Parlamentinin bugünkü 100 illiyində iştirak edirik".

***Ceyhun Rasimoğlu***

# Azərbaycan Parlamenti fəaliyyətini demokratik prinsiplər əsasında qurub

***Bu gün Azərbaycana olan marağın artması, beynəlxalq miqyasda dövlətimizə olan münasibət onun tarixi, dövlətçilik ənənələri, eləcə də, bu gün müstəqil dövlət olaraq, dinamik inkişafı ilə bağlıdır.***



Öz tarixi ənənələrinə sadiq olan Azərbaycanın artan iqtisadi imkanları, sülhsevər siyasəti ölkəmizin dünyanın görünən bir parçasına çevirib. Dövlətimizdə hansısa önəmli bir hadisənin baş verməsi, sülhsevər siyasəti, inkişaf modeli və s. dünyanın nüfuzlu mətbuat orqanlarının əsas mövzusuna çevrilib. Elə son vaxtlar Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan Ordusunun və Bakının işğaldan azad olmasının 100 illiyi ilə bağlı keçirilən rəsmi tədbirlər dünyanın nüfuzlu mətbu orqanlarının gündəmində oldu. Bu günlərdə isə, bildiyimiz kimi, Azərbaycan Parlamentinin yaradılmasının 100 illiyi qeyd olundu. Azərbaycan Prezidenti İlham Əliyevin və xarici ölkələrdən dəvət edilmiş çoxsaylı qonaqların iştirakı ilə Milli Məclisdə Azərbaycan Parlamentinin 100 illiyinə həsr edilmiş təntənəli iclas dünyanın bir çox ölkələrinin nəşrlərinin səhifələrində geniş işıqlandırılıb. Ərəb mətbu orqanları "Albilad", "Akhbaralkhaleej", və digərləri, eləcə də, Sudan, Misir, Rusiya və başqa ölkələrin populyar nəşrləri Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə keçirilmiş geniş tədbir barədə oxucuları ətraflı məlumatlandırırlar. Parlamentli respublika sisteminin tətbiq edilməsi, demokratik və dünyəvi dövlətçilik yolunda atılan inamlı addımlar təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi həyatında yeni səhifə açması əhəmiyyətli tarixi hadisə olaraq diqqətə çəkilir. Yüz il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentin yaradılması mühüm addım idi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin siyasi, iqtisadi, sosial, mədəni və hərbi sahələrdə qəbul etdiyi mütərəqqi qanunvericilik aktları bu dövlətin səmərəli fəaliyyətinə şərait yaratmış oldu. Məqalələrdə belə bir tarixi olan Azərbaycan Parlamentinin müsəlman aləmində, ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətində kişilərə və qadınlara bərabər seçki hüququ təsbit edilməsi vurğulanır.

100 il sonra müstəqil Azərbaycan öz demokratik inkişaf yolunu davam etdirir və müasir dövlət kimi inkişaf edir. Öz fəaliyyətini demokratik prinsiplər əsasında quran Azərbaycan Parlamenti ölkədə aparılan hüquqi-demokratik və dünyəvi dövlət quruculuğunun möhkəm hüquqi bazasını yaradıb və təkmilləşdirib. Azərbaycan Parlamenti müasir demokratik dövlət qurulması, azadlıq və demokratiya prinsiplərinin möhkəmlənməsi, ölkənin inkişafı və firavanlaşması işlərinə sanballı töhfə verib.

Bu mövzuda yazılarda xüsusi vurğulanır ki, sözügedən tədbir dünyanın müxtəlif ölkələrinin parlamentləri arasında dostluq və əməkdaşlıq körpüləri yaradılması üçün böyük əhəmiyyət kəsb edir və nəzərəçarpacaq rol oynayır. Bu da, öz növbəsində, parlament fəaliyyətinin genişlənməsinə şərait yaradır. Parlament beynəlxalq əlaqələrini də çox sürətlə inkişaf etdirir. Vurğulamaq yerinə düşər ki, Milli Məclis on beynəlxalq təşkilatın üzvüdür. Milli Məclisdə 80-dən çox ölkənin parlamentləri ilə dostluq qrupları fəaliyyət göstərir. Prezident İlham Əliyev Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda bildirib ki, biz bir çox beynəlxalq Konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan Parlamentinin çox böyük rolu var... Azərbaycan deputatları beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iş aparırlar. Bu, Azərbaycan xalqı tərəfindən də qiymətləndirilir, mən də bunu izləyirəm və deməliyəm ki, doğrudan da, çox böyük iş aparılır. Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi-siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın". Əminliklə vurğulamaq lazımdır ki, Milli Məclis Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məsələsini daim diqqət mərkəzində saxlayır. Azərbaycanda dövlət hakimiyyətinin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq münasibətləri bərqərar olub. Müasir Azərbaycan Parlamenti tarixi köklərinə söykənərək ölkənin iqtisadi-mədəni inkişafına və regionda aparıcı bir ölkəyə çevrilməsinə öz töhfəsini verir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# ORDUXAN ƏVVƏLDƏN "ZAD" ÇIXMIŞDI

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Deyir, sən saydığını say, gör fələk nə sayır. Məsələ də ondadır ki, fələklə oyun-oyun oynayanın özü-öz fələyini, hələ, üstəlik də, kələyini kəsdi. Söhbət Orduxandan gedir, Teymurxanın oğlu Orduxandan, yəni Hollandiyada gah bu, gah da digər şəkildə meymunluq edib, Azərbaycan dövlətinə qarşı çıxan Bəbirovdan. Demə, bu gəda elə həqiqi gədaymış, özü də Rusiya "QRU"sunun - xüsusi kəşfiyyat idarəsinin gədası. Nə xalq azadlığı hərəkatında, nə Qarabağ savaşında, nə də digər ümummilli məsələlərdə ortada olmayan birinin birdən-birə "cırt" eləyib ortaya çıxması, həqiqətən də, bir çoxlarını düşündürürdü. Düşündürürdü ki, aya, axı bu Orduxan haradan hoooppp eləyib, siyasi meydana atıldı, üstəlik, xüsusi təlxəklikləri ilə "populyarlıq" qazandı?***

## Siyasi fahişə obrazı

İndi isə, hər şey məlum olmağa başlayıb. Bu gəda rus kəşfiyyatının qaranlıq dairələrinin Avropaya göndərilmiş köpəyi imiş ki, Azərbaycan dövlətinə qarşı hürməklə məşğul olub. Eləbelə deyil ki, onu ən çox dəstəkləyən tərəf, məhz "Milli Şura" olub. Həmin "Milli Şura" ki, bu qurum da 2013-cü ildə Rusiyanın qaranlıq dairələrinin sifarişi ilə təsis edilərək, Azərbaycanın dövlətçilik maraqlarına qarşı yönəlmişdi. Nə isə, "Milli Şura"dan, onun tərkibindəkilərdən, zatən məlumatlıyıq.

Əsası isə budur ki, Orduxanı şəxsən tanıyan birinin ölkə mediasına verdiyi məlumat özündə bütün həqiqətləri göstərir, o cümlədən, onun sosial şəbəkələrdəki siyasi fahişə obrazını canlandırmasının əsas tərəflərini açığa çıxarmış olur. Ta Sovet ordusunun xüsusi təyinatlı (Hava desantı) qüvvələrindəki xidmətindən tutmuş Azərbaycanda xalq hərəkatını boğan cəza dəstələrində xidmət eləməsinə qədər..! Üstəlik, Xankəndidə, Lənkəranda, Sumqayıtda, Mingəçevirdə və s. yerlərimizdə hərəkat üzvlərinin tutulmasında, güllələnməsində və s. hadisələrdəki iştirakı da buraya əlavədir.

## Axırda o qədər çərənlədi ki...

Ümumiyyətlə, öz fələyini və kələyini, hətta torbasını, bilərəkdən, ya da bilməyərəkdən tikən Orduxan Teymurxan axırda o qədər çərənlədi ki, paraşütçü desant olduğunu, "BTR" sürdüyünü və s. idman növləri ilə məşğul olduğunu dolayısı ilə etiraf elədi. Hələ onun Sovet dönəmində cəza dəstəsində keçirdiyi xidməti dövrlərinin fotolarını demirəm...

Beləliklə, Orduxanın da kitabı belə bağlandı. İndi növbə o birilərinindir. Görək o biri gəda-güdalar kimlərə, hansı erməni lobbilərinə, ya da xarici kəşfiyyatlara işləyiblər. Yavaş-yavaş onların da maskalarının yırtılma vaxtı məlum olacaq. Vaxt var, zaman var...

***P.S. Orduxanın ifşası onun başına yaman dərd olacaq. Hətta o, Avropanın göbəyində "QRU"-nun "təsadüfən" şütüyən maşınının təkərləri altında "ehtiyatsızlıq" üzündən "əzilib", gərək siz həyatını da itirə bilər...***

# "Made in Azerbaijan" brendini necə tanıdırıq?

***Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində bir sıra addımların atıldığı göz önündədir. Lakin Prezident İlham Əliyevin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamından irəli gələn "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi ilə bağlı atılan addımlara diqqət yetirsək bu sahədə əldə olunan uğurları görə bilərik. İlk növbədə qeyd edək ki, yerli məhsulların xarici bazarlara çıxarılması işinin təşkili, bazarların araşdırılması, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə çəkilən xərclərin dövlət hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi qaydası, həmçinin Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı görülmüş işlər barədə hesabat forması təsdiq edilib. Bununla yanaşı, Prezident İlham Əliyev tərəfindən "Xarici ölkələrə ixrac missiyalarının təşkili, xarici bazarların araşdırılması və marketinq fəaliyyəti, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər alması, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında fərman da imzalanıb.***




**Bəs görəsən 2016-cı ildən bu günə qədər "Made in Azerbaijan" brendinin tanıdılması istiqamətində hansı işlər görülüb?**

## "2017-ci ildə ixrac missiyaları zamanı imzalanmış müqavilələr üzrə 2 mln. manatlıq məhsul ixrac olunub"

2017-ci il ərzində "Made in Azerbaijan" brendinin xarici ölkələrdə təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Çinə, Birləşmiş Ərəb Əmirliklərinə, Almaniyaya, Əfqanıstana, Pakistana, Qətərə, Qazaxıstana, Macarıstana, Rusiyaya və Səudiyyə Ərəbistanına ümumilikdə 10 ixrac missiyası təşkil olunub. Bu ixrac missiyalarında 160-dan çox şirkət iştirak edib, missiyalar çərçivəsində bir sıra məhsulların ixracına, o cümlədən meyvə-tərəvəz, şərab, meyvə şirələri, konservləşdirilmiş məhsullar, tikinti materialları, mebel və digər məhsulların ixracına dair razılaşmalar əldə olunub, müqavilələr bağlanılıb. "Bundan əlavə, "Gulfood 2017" beynəlxalq ərzaq sərgisində, "Prowein 2017" beynəlxalq şərab sərgisində, "Worldfood Moscow" beynəlxalq ərzaq sərgisində, "ANUGA" beynəlxalq ərzaq sərgisində, "Hong Kong International Wine & Spirits Fair 2017" beynəlxalq şərab sərgisində yerli şirkətlərin "Made in Azerbaijan" vahid ölkə stendi ilə iştirakı təmin edilib. 2017-ci ildə vahid ölkə stendi mexanizmi çərçivəsində 19 mln. manatlıq müqavilələr imzalanıb və 6 mln. manatadək məhsul ixrac edilib. Bundan başqa, 2017-ci ildə ixrac missiyaları zamanı imzalanmış müqavilələr üzrə 2 mln. manatlıq məhsul ixrac olunub. Xarici ölkələrdə və beynəlxalq KİV-də yerli məhsullarımızın tanıdılması ilə bağlı reklamlar yerləşdirilib. "Azərbaycan şirələri" və "Azərbaycan meyvələri" sahəvi brendlər üzrə reklam çarxları hazırlanaraq Rusiya Federasiyasının "Rossiya 24" federal televiziya kanalında oktyabr-noyabr aylarında yayımlanıb".

## "2018-ci ildə ixrac missiyalarının və beynəlxalq sərgilərin sayı artırılıb"

2018-ci ilin yanvar-may ayları ərzində "Made in Azerbaijan" brendinin xarici ölkələrdə təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə Rusiyanın Həştərxan vilayətinə ixrac missiyası təşkil olunub. İxrac missiyasında tikinti materialları, tekstil, qənnadı məhsulları, meyvə-tərəvəz, təbii mineral sular və limonadlar, meyvə şirələri və s. sahələr üzrə 30-dan çox yerli şirkətin nümayəndəsi iştirak edib. Bundan əlavə, ilin əvvəlindən Azərbaycan şirkətlərinin vahid ölkə stendi ilə 4 sərgidə iştirakı təmin olunub. Belə ki, Azərbaycan şirkətləri Moskvada keçirilən "Prodexpo 2018", Dubayda "Gulfood 2018", Çin Xalq Respublikasının Şanxay şəhərində "Sial China 2018" və Berlində "Fruit Logistica 2018" beynəlxalq ərzaq sərgilərində "Made in Azerbaijan" vahid ölkə stendi ilə iştirak ediblər.

2018-ci ilin əvvəlindən vahid ölkə stendi mexanizmi çərçivəsində 5,5 mln. manatlıq müqavilə imzalanıb və artıq 4 mln. manata yaxın məhsul ixrac olunub. Belə ki, məhsul və xidmətlərin xarici bazarlarda təşviqi məqsədi ilə müvafiq beynəlxalq tədbirlərdə iştirakın təmin edilməsi, sahibkarların xarici bazarlarda fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində uğurla həyata keçirilmiş tədbirlərin davamı olaraq, dövlət başçısının 11 yanvar 2018-ci il tarixli Fərmanına əsasən, 2018-ci ildə təşkil ediləcək ixrac missiyalarının və beynəlxalq sərgilərin sayı artırılıb. Ümumilikdə, bu il 13 ixrac missiyasının təşkili nəzərdə tutulur. İxrac missiyasının maksimum müddəti 4 gündən 6 günədək, iştirakçıların sayı isə 20-dən 30-a qədər artırılıb. Bütün bunlar isə, Azərbaycanın iqtisadi və ticarət əlaqələrinin, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinin genişlənməsinə, qeyri-neft məhsullarının ixracının artmasına, xarici ölkələrə ixrac missiyalarının və Azərbaycana alıcı missiyalarının səmərəli təşkilinə geniş imkanlar yaradır.



**"Made in Azerbaijan" brendinin tanıdılması istiqamətində işlər yetərlidirmi və bu istiqamətdə daha hansı addımların atılması uğur gətirə bilər?**

## "Bu işdə özəl sektor da maraqlı olmalıdır"

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri iqtisadçı ekspert Ruslan Atakişiyev bildirib ki, "Made in Azerbaijan" brendinin tanıdılması üçün müxtəlif ölkələrdə yarmarkalar, tanıtım işlərinin davam etdirilməsi lazımdır: "Bu brendin tanıdılması istiqamətində dövlətlə yanaşı, özəl sektor da maraqlı olmalıdır. Özəl sektor həm də istehsal etdiyi məhsulların keyfiyyətinə önəm verməlidir. Əgər biz "Made in Azerbaijan" brendi adı altında beynəlxalq standartlara cavab verən məhsul istehsal etməsək, o zaman bu istiqamətdə görülən işlərdən nəticə əldə etmək mümkün olmaz. Biz brendimizin adına xələl gətirəcək keyfiyyətsiz məhsullar deyil, daha keyfiyyətli məhsul istehsal etməklə onu qorumalıyıq. Məhsulların tanıdılmasında ilk işlərdən biri onun keyfiyyətli olmasıdır. Çünki alıcı hər hansı məhsulu alıb ondan razı qaldıqda mütləq şəkildə digər alıcıya da tövsiyə edir".

## "Məhsulların fasiləsiz təminatı məsələsinə önəm verilməlidir"

Ekspert söyləyib ki, "Made in Azerbaijan" adının brend kimi tanıdılması formalaşmasında özəl sektor yerli istehlakçılarla birgə çalışmalıdır: "Burada məhsulların fasiləsiz təminatı məsələsi də var ki, bu məsələyə önəm verilməlidir. Əgər biz brendi tanıdırıqsa və həmin məhsul bazarlarda yoxdursa, o zaman görülən işlər lüzumsuz fəaliyyətə çevrilə bilir. Reklam xərci çəkən şirkətlərə də dövlət dəstəyinin edilməsi mühümdür".

**"Made in Azerbaijan"ın reklamının hansı ölkələrdə genişləndirilməsinə ehtiyac var?**

R. Atakişiyev hesab edir ki, Made in Azerbaijan"ın brendinin reklamının genişləndirilməsi üçün ilk növbədə beynəlxalq bazar öyrənilməlidir.

## "MDB bazarlarına daxil olmaq daha asandır"

Hər bir bazarın özünün standartlarının olduğunu deyən ekspert söyləyib ki, MDB məkanında yaxın qonşu dövlətlər təmsil olunduğu üçün bu bazarlara daxil olmaq daha asandır: " Daxil olması asan olan bazarlardan istifadə etmək yerli brendimizin tanıdılmasında mühüm rol oynaya bilər. Həm də bu bazarlar vasitəsilə digər bazarlara irəliləmək mümkündür. Beynəlxalq məhsul ixracında maraqlı olan şirkətlərin özünün strategiyası olmalıdır. Xarici bazarlara daxil olan zaman məhsulun növünə fikir vermək önəmlidir".

Mərkəz sədri əlavə edib ki, müxtəlif ölkələrə yerli sahibkarların görüşünün təşkili də "Made in Azerbaijan" brendinin tanıdılmasına öz töhfəsini verə bilər: "Belə olan halda, ölkələrin hansı məhsullarının tələbatını bilmək olar". Məlumat üçün nəzərinizə çatdıraq ki, artıq Belarusda Latviyada, Riqada Azərbaycan ticarət evləri fəaliyyət göstərir. Azərbaycanın məhsullarının məhz bu mexanizm vasitəsilə satışı təşkil olunur.

Qeyd edək ki, cari ilin sentyabrın 2-də Çinin Urumçi şəhərində "Azərbaycan Şərab Evi" açıldı. Bu, Azərbaycanın xarici ölkədə açılan ilk Şərab Evidir. "Made in Azerbaijan" brendinin təşviqi, ixracın və istehsalın stimullaşdırılması, o cümlədən Azərbaycan məhsullarının xarici bazarlarda tanıdılması və satışının genişləndirilməsi məqsədi ilə xarici ölkələrdə yeni ticarət və şərab evlərinin açılması nəzərdə tutulur.

***Nailə Məhərrəmova***

# Orduxan Teymurxan rus kəşfiyyatının agenti imiş - sensasion və mötəbər faktlar

***Azərbaycana qarşı mənəvi terror aparan "QRU" əməkdaşı olan "söyüş makinası", hələ sovetlər vaxtında hərbi xidmətdə olarkən "verbovka" edilən Orduxan Teymurxan oğlu Bəbirov barəsində maraqlı faktlar üzə çıxıb. 1988-ci ildə başlayan xalq hərəkatına qarşı təxribatlar törədən cəza dəstəsində xidmət keçən Orduxan barəsində "Yeni Müsavat"yazıb. SİA həmin materialı təqdim edir:***




Siyasi proseslərdə heç nə təsadüfi olmur. Bu, zaman-zaman deyilmiş və praktiki olaraq təsdiqini tapmış məsələdir. Bu baxımdan o da mümkün deyildi ki, heç zaman siyasi-ictimai proseslərdə iştirakçı olmayan, mübarizə meydanlarında görünməyən bir adam qəfildən Avropada peyda olsun və Azərbaycan dövlətinə qarşı indiyədək rast gəlinməyən iyrənc formada fəaliyyətə başlasın. Özü də o "fəaliyyətə" ki, burada əsas prioritet Azərbaycanın insanına, dəyərlərinə xas olmayan bir tərzdə söyüş, ağır təhqirlər "mübarizə" metodu seçilir və faktiki olaraq, "mənəvi terror" törədilir. Eyni zamanda bu fəaliyyətdə Azərbaycanın düşmənləri - erməni lobbisi ilə eyni "ələ oynamaq" da açıq-aydın şəkildə prioritetlərdən biridir.



Qəfildən Avropada peyda olub, Azərbaycana qarşı çirkin kampaniyalar aparan şəxslərdən biri məhz Orduxan Teymurxan oğlu Bəbirovdur. Hansı ki, onu üzü 90-lardan bu yana, ta 2015-ci ilə qədər nə Azərbaycanda hakimiyyətlə siyasi mübarizə aparan təşkilatda görən olub, nə bir mitinqdə iştirakı olub. Ümumiyyətlə, ömrünün xeyli hissəsini Rusiyada keçirən bu adamın birdən-birə Avropada peyda olub, Azərbaycan dövlətinə qarşı mənəvi terrora başlaması ilk gündən şübhələrə yol açmışdı.

Bu cür təxribat xarakterli davranış taktikası adətən, xüsusi xidmət orqanlarında hazırlanan adamlar tərəfindən həyata keçirilir. Elə isə haqlı suallar yaranmışdı: Axı bu Orduxan kimdir? Hardan peyda oldu? Onu kim danışdırır? Məqsəd nədir? Bu kəsi haradan maliyyələşdirir və təlimatlandırırlar? Bu suallar təbii ki, hər zaman düşündürücü olub.

Uzun müddətli araşdırmalar və dəqiqləşdirmələrdən sonra bu adamı tam ifşa edə biləcək faktlar əldə etmək mümkün olub.

Detallara keçmədən, ümumi olaraq deyək, təsdiqini tapan bu məlumatlardan aydın olur ki, Orduxan Bəbirov hələ çox uzun illər əvvəl keçmiş sovet hərbi kəşfiyyatı tərəfindən konfidensial əməkdaşlığa cəlb edilmiş, hazırda Rusiya xüsusi xidmət orqanlarının, konkret olaraq "QRU"-nun nəzarəti altında Azərbaycana qarşı bəlli təxribatçı, pozucu fəaliyyətini davam etdirir.

**Dosye:**

Bəbirov Orduxan Teymurxan oğlu 23.09.1969-cu ildə Cəbrayıl rayonunun Horovlu kəndində anadan olub. Doğulduğu kənddə orta təhsil alıb və daha sonra 1987-1989-cu illərdə sovet ordusunda, Ukraynanın Odessa vilayətinin Bolqrad şəhərində yerləşən 98-ci qvardiya hava-desant diviziyasında ("VDV") qulluq edib.

Elə onun "verbovka"sı da hərbi xidmət dövründən başlayıb. O.Bəbirov faktiki olaraq özü haqda "məxfi" sayıla biləcək informasiyaları da bilərəkdən, yaxud bilməyərəkdən sosial şəbəklərdə yazdığı statuslarda özü sızdırıb. O, sosial şəbəkə paylaşımlarında müvafiq diviziyanın Moldova ərazisindəki bölməsində "paraşütçü" kimi hərbi xidmət keçdiyini də yazaraq təsdiq edib.

Bəzi məlumatlara görə, Orduxan məlum açıqlamasında 98-ci "VDV"nin Moldova ərazisində dislokasiya olunmuş 300-cü paraşüt-desant alayını nəzərdə tutur.

Müxtəlif mənbələrdə, habelə KİV-lərdə yazılanlara əsasən, 1987 və 1989-cu illərin döyüş və siyasi hazırlıq nəticələrinə görə, həmin hərbi hissə "hava-desant qoşunlarının ən yaxşı alayı" adını qazanıb. İnternet resurslarındakı məlumatlardan bəlli olur ki, SSRİ-nin süqutundan sonra 300-cü alayın hərbi texnikası Moldovaya təhvil verilsə də, hərbi hissənin şəxsi heyəti RF-nın Xakasiya Respublikasının Abakan şəhərinə köçürülüb. Daha sonra o hissənin bazasında 100-cü əlahiddə hava-desant briqadası yaradılıb...

Və ortaya çıxan ilk dəhşətli, Orduxanın birbaşa cinayət məsuliyyətinə cəlb edilməsinə, eyni zamanda mənəvi məsuliyyətinə səbəb ola biləcək fakt:

Məlumatlı, Orduxan Teymurxan oğlu Bəbirovu şəxsən tanıyan mənbə qeyd edir ki, o, sovet ordusunun sıralarında Azərbaycan xalqının milli-azadlıq hərəkatına qarşı hərbi fəaliyyətlərdə iştirak edib!

Qaynağın verdiyi ilkin informasiyalar və onun əsasında apardığımız araşdırmalar nəticəsində bəlli olub ki, 98-ci diviziyanın Bolqradda dislokasiya olunmuş 217-ci paraşüt-desant alayının şəxsi heyəti Cənubi Qafqazda xüsusi "dövlət tapşırıqları"nı yerinə yetirib. Ən şokedici məlumat isə odur ki, Orduxanın xidmət və təlim keçdiyi, azərbaycanlılara və Azərbaycana qarşı əksər əməliyyatlarında iştirak edən həmin alayın şəxsi heyəti 1988-1990-cu illərdə Bakıda və Azərbaycanın müxtəlif iri şəhərlərində - Sumqayıt, Gəncədə "konstitusion qaydanın təmin olunması" adı altında Azərbaycan xalqının milli-azadlıq hərəkatına qarşı mübarizədə aktiv iştirak edib!

Məlumata görə, sözügedən alay Ermənistanın Oktembryan rayonu və İrəvan şəhəri, Azərbaycanın Xankəndi (Stepanakert) və Bakı şəhərində azərbaycanlılara qarşı xüsusi əməliyyatlara cəlb olunub. Bir konkret fakta diqqət edək: 1989-cu ilin 18 oktyabrında həmin diviziyanın hərbi qulluqçularını Bolqrada aparan İl-76 hərbi təyyarəsi Bakı yaxınlığında qəzaya uğrayıb. Bu qəzada 9 ekipaj üzvü və 48 desantçı ölüb. Bu, həmin alayın hərəkat illərində Azərbaycana qarşı cəza dəstəsi kimi istifadə olunmasını təsdiqləyən faktdır.

Digər bir fakt isə ondan ibarətdir ki, 16 yanvar - 16 mart 1990-cı ildə Bakı şəhərində Azərbaycan xalqına qarşı əməliyyatlar üçün dislokasiya edilmiş 98-ci diviziyanın şəxsi heyəti 20 yanvar faciəsinin törədilməsində bilavasitə iştirak edib!

Azərbaycan vətəndaşı olduğundan, xalqın psixologiya və mədəniyyətini bildiyi üçün Orduxan Bəbirovun hərbi xidmət dövründə "verbovka" edilərək, 98-ci diviziyanın peşəkar döyüş qabiliyyətli, de-fakto cəza dəstəsi kimi fəaliyyətdə olan 217-ci, 299-cu və 300-cü alaylarının hərbi qulluqçularından formalaşdırılmış əməliyyat-taktiki qrupunun tərkibinə Azərbaycan ərazisində, o cümlədən ölkəmizin iri şəhərlərində (Gəncə, Sumqayıt və s.) milli azadlıq hərəkatına qarşı əməliyyatlarında fəallıq göstərdiyinə dair məlumatlar da var. Heç şübhəsiz ki, onun bu fəaliyyətini təsdiqləyən arxiv sənədləri də mövcuddur. Təəssüf ki, onlar məxfi sənədlərdir və onu Rusiya arxivlərindən almaq mümkünsüzdür. Bizi bilgiləndirən mənbə bunun dövlət sorğusu əsasında alına biləciyini də qeyd edir.



Burada bir vacib detala da diqqət edək: Əldə etdiyimiz daha bir informasiyaya görə, münaqişə bölgələrində xüsusi əməliyyatlarda iştirak təcrübəsi nəzərə alınaraq, 98-ci diviziyanın və onun alaylarının rəhbər heyəti - onların bir çoxu Orduxanın komandirləri olub - müxtəlif vaxtlarda Rusiya Silahlı Qüvvələrinin yüksək idarəetmə orqanlarında təmsil olunublar. Bu fakt onların Azərbaycanda 88-89-cu illərdə cərəyan edən siyasi proseslərdə yaxından iştirak etməsinə də şübhə yeri qoymur. Buna dair bir neçə fakt da mövcuddur. Məsələn, arxiv materiallarından və internet resurslarındakı bəzi məlumatlardan bəlli olur ki, 1985-1989-cu illərdə 98-ci diviziyanın komandiri olmuş, Tatarıstan əsilli general-mayor A.A.Çindarov Əfqanıstandakı hərbi əməliyyatlarda, Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya və Çeçenistan münaqişələrində, habelə Yuqoslaviya ərazisində Rusiya sülhməramlılarının yeridilməsi proseslərində bilavasitə iştirak edib.

Daha bir fakt: 1986-1989-cu illərdə 300-cü alay komandiri olmuş A.P.Kolmakov isə Rusiyada 1991-ci ilin avqust dövlət çevrilişi cəhdi zamanı desantçıların Moskvaya yeridilməsində, RSFSR Ali Sovetinin əvvəlcə mühasirəyə alınmasında, sonradan isə parlament binasının mühafizəsinin təşkilində əsas fiqurlardan biri olub. O, 2003-2007-ci illərdə "VDV"nin komandanı, 2007-2010-cu illərdə Rusiya müdafiə nazirinin 1-ci müavini olub. Bu şəxs 2014-cü ildən "DOSAAF"ın rəhbəri kimi fəaliyyət göstərir.

Bu diviziyanın siyasi, konfliktli proseslərdə iştirakı, komandirlərin, zabitlərin təcrübəsi nəzərə alınmaqla, onlar hər zaman önə çəkiliblər, məxfi, siyasi xarakterli kəşfiyyat işlərində fiqur olublar.

Daha bir kadr - 1989-1991-ci illərdə 300-cü alayın komandiri olmuş A.N.Bespalov 2005-ci ildə Zaqafqaziyadakı Rusiya qoşunları qrupunun komandanı, habelə Şimali Qafqaz Hərbi Dairəsi komandanının müavini kimi xidmət keçib. Hazırda RF SQ Hərbi Akademiyasında hərbi idarəetmə kafedrasının rəisi vəzifəsini tutur.

1991-1995-ci illərdə həmin alay komandiri olmuş A.İ.Lebed (14-cü ordunun komandanı, RF Təhlükəsizlik Şurasının katibi olmuş general Lebedin qardaşı) 1979-1982-ci illərdə Əfqanıstanda, İrəvan və Bakıda xidmət edib. 1995-ci ildən siyasi fəaliyyətə qoşulub, Xakasiya Respublikası hökumətinin başçısı, "Vahid Rusiya" partiyasının siyahısı üzrə Dövlət Dumasının deputatı seçilib.

Sadalananlar 98-ci diviziyanın şəxsi heyətindən, o cümlədən komandir kadrlarından keçmiş SSRİ, sonra isə RF-in hərbi-siyasi maraqları çərçivəsində vacib element kimi istifadə edildiyini söyləməyə əsas verir. Məsələnin incə və birbaşa Orduxan Bəbirova aid olan hissəsi isə odur ki, mənbənin məlumatına görə sözügedən diviziyadakı milli azlıq nümayəndələrini təmsil edən çağırışçılar arasından SSRİ - daha sonra Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahının Baş Kəşfiyyat İdarəsi üçün konfidensial əməkdaşlığa namizədlərin seçilməsi, öyrənilməsi və gələcək fəaliyyətlərə hazırlığı prosesində geniş istifadəsi edilməsinə dair informasiyalar, faktlar mövcuddur.


Ordukhan Temirkhan Babirov 6 yaşımdan ciddi idmanla məşqul oluram, bu günə qədər.
Like · Reply · 39w

Ordukhan Temirkhan Babirov[redacted] hər idmanla məşqul olmuşam. 14 il cü-do ilə məşqul olmuşam,. SAMBO, karate, əlbə-yaxa döyüş, boks, qaçış, paraşütlə tullanma. Nə desən var. BTR sürmək, atıcılıq,. Eee nələr yoxu.
Like · Reply · 39w 2

Bütün bu faktları təsadüfən sadalamırıq. Bu qeyd edilənlər belə bir qənaət formalaşdırır ki, həmin siyasi xarakterli, cəza qüvvəsi kimi tanınan alayda xidmət keçən Orduxan Bəbirovun onların diqqətindən yayınması mümkünsüzdür. Mənbəmiz bunun baş verdiyini təsdiqləyən faktları da çatdırıb. Belə ki, başqa ölkə ilə sərhəd bölgəsində yaşayan Orduxanın rus kəşfiyyatının diqqətini necə cəlb etməsi, hərbi xidmətə getdikdən sonra onun doğulduğu Cəbrayıl rayonunun icra orqanlarındakı sənədlərinin alınıb aparılması, hərbi qeydiyyatdan belə çıxarılıb Rusiyada qeydiyyata alınması haqda ilginc məlumatlar da gələn xəbərlər sırasındadır...

Bu və Orduxan Bəbirovun SSRİ dağıldıqdan sonra Rusiya xüsusi xidmət orqanlarının agenti kimi, ən müxtəlif proyektlərə necə cəlb edilməsi, habelə onun kəşfiyyat orqanlarının dəstəyi ilə sonrakı müddətdə Rusiyadakı azərbaycanlılara qarşı kriminal cəza dəstələrindən birinə kurator kimi cəlb edilməsi, RF-də yaşayan azərbaycanlılara qarşı reket və əsassız pul tələbetmə fəaliyyətləri ilə məşğul olması haqda məlumatları da növbəti yazıda təqdim edəcəyik.

## Qabil Hüseynli: "ABŞ Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə daha fəal müdaxilə edəcək"



Müsahibimiz politoloq Qabil Hüseynlidir

***- Qabil müəllim, Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Tramp bildirib ki, yaxın aylarda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı imkanlar açılacaq. ABŞ prezidenti imkanlar açılacaq deyəndə, nəyi nəzərdə tutur?***

- Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Trampın söylədiyi fikirlər ictimai rəyə hesablanan sözlərdir. Bəzən bu sözləri çeynənilmiş sözlər kimi dəyərləndirmək olar. Amma hər halda, əgər bunu böyük bir ölkənin prezidenti deyibsə, deməli, o nəyi isə nəzərdə tutaraq bu sözləri deyir. Ola bilsin ki, ABŞ Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə daha fəal müdaxilə edəcək və həmsədrlik funksiyasını daha layiqincə həyata keçirəcək. Ola bilər ki, Tramp bölgədə baş verə biləcək bəzi geosiyasi dəyişmələri də proqnozlaşdıraraq, bunu söyləyib. Çünki ABŞ-ın bu bölgədə geniş geostrateji maraqları var və bu maraqlar uğrunda mübarizə aparacağı təqdirdə, yəqin ki, bu proseslərdə daha fəal iştirakını təmin etmək barədə düşünür. Ona görə də, hər halda, belə güman edək ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı imkanlar yarana bilər.

***- ABŞ prezidentinin bu qətiyyətli mövqeyi münaqişənin həllinə ümidlər yarada bilər?***

- Ümumiyyətlə, Ermənistanın işğalçı bir ölkə olmasını hər kəs çox gözəl bilir. Əlbəttə ki, işğalçı ölkə olan Ermənistan törətdiyi bütün əməllərinə görə, cavab verəcəkdir. Bu baxımdan da, hər halda, ABŞ-ın bu işlə məşğul olan strukturlarının verdiyi məlumatlar və proqnozları əsasında Tramp bu fikri söyləyib.

***- ABŞ-ın münaqişənin həllinə fəal müdaxiləsi Rusiya tərəfindən qısqanclıqla qarşılanmayacaq ki?***

- ABŞ daha çox bizim bölgəyə yaxın olan Yaxın Şərqdəki proseslərə istinadən bu sözləri deyir. Amma heç də, istisna deyil ki, ABŞ-ın Cənubi Qafqaza müdaxiləsi də arta bilsin. Çünki Rusiyaya qarşı sərt mövqe tutan ABŞ Rusiyanı mühasirəyə almağa çalışan siyasət yürütməyi çoxdan qarşısına məqsəd qoyur. Ancaq hələ ki, bunu həyata keçirə bilmir. Güman edək ki, o, Cənubi Qafqazdan başlayaraq, Orta Asiyaya doğru istiqamət götürən böyük bir siyasəti həyata keçirməyi başlaya bilər. Bununla da prezidentin dedikləri reallığa çevrilə bilər.

**GÜLYANƏ**

# Təhsil sahəsində köklü islahatlar aparılır



Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Ulu Öndərin təhsil strategiyasını uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin qayğısı nəticəsində ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir. Bu, Prezident İlham Əliyevin təhsili dövlət siyasətinin prioritetlərindən biri kimi diqqətdə saxlamasıdır. Dövlətin təhsil siyasətinin prioritet sahələrindən biri hər bir vətəndaşın keyfiyyətli və fasiləsiz təhsil alması imkanının təmin edilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün şəraitin yaradılmasıdır. Bu baxımdan, ardıcıl olaraq son on beş ildə Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə təhsil sahəsində köklü islahatlar aparılır. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Orta ixtisas məktəblərində təhsilin idarə edilməsi, eləcə də, onun keyfiyyətinin yaxşılaşdırılması sahəsində kifayət qədər irəliləyişlər əldə olunub.

### YENİ TƏDRİS İLİNDƏ 165 780 ŞAGİRD BİRİNCİ SİNİFDƏ TƏHSİL ALACAQ

Yeni tədris ilində ümumi təhsil müəssisələrində, ümumilikdə, 1 592 317 şagird təhsil alacaq. 165 780 şagird isə birinci sinifdə təhsil alacaq.

Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ildən-ilə artırılması da hökumətin bu sahənin keyfiyyətcə yeniləşməsi üçün ardıcıl və sistemli fəaliyyət göstərdiyini təsdiqləyir. Ayrılmış vəsaitlər "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"na və "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"ya uyğun olaraq, təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə geniş maliyyə təminatı yaratmışdır. Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından, çox mühüm addımlardandır. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Yeni dərs ilinə hazırlıq çərçivəsində ümumi təhsil müəssisələrinin təmir və tikintisi davam etdirilir. Hazırda ölkəmizin müxtəlif bölgələrində 34 yeni məktəb binası tikilir, 22 məktəb binasında isə, əsaslı təmir-bərpa işləri aparılır. 2018-ci ildə respublika ərazisində 137 modul tipli təhsil müəssisəsi istifadəyə veriləcək. Ümumilikdə, Bakı şəhəri və ölkənin 54 rayonu olmaqla, 193 obyektdə işlər aparılır.

### MƏKTƏBLİLƏR MÜASİR DÖVRÜN ÇAĞIRIŞLARINA UYĞUN OLARAQ VƏTƏNPƏRVƏRLİK RUHUNDA BÖYÜYÜR

Ümumi təhsil məktəblərinin təmir-tikinti işləri, son illərdə davamlı olaraq, həyata keçirilir və bu işlər, ümumilikdə, tədris alanların təhsil şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Təhsili keyfiyyətinə ayrılan diqqətin nəticəsi olaraq, 2018-2019-cu tədris ilinə dövlət ümumtəhsil müəssisələrinin I-XI sinifləri üçün 332 adda 6 726 029 nüsxə dərslik və müəllimlər üçün metodik vəsait çap edilib. Azərbaycandan kənarda yaşayan soydaşlarımızın da dərsliklərlə təchizatı da diqqətdən kənarda qalmayıb. Bu günlərdə Gürcüstanın Azərbaycandilli məktəblərinə 2018-2019-cu tədris ili üçün dərsliklər göndərib. Göndərilən vəsaitlərə 1-11-ci siniflər üçün, ümumilikdə, 24 127 ədəd "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliyi daxildir. Qeyd edək ki, Təhsil Nazirliyinin Gürcüstanın Azərbaycandilli məktəblərə builki tədris ili üçün göndərdiyi dərsliklər 2017-2018-ci tədris ilə müqayisədə çoxdur. Belə ki, ötən il Azərbaycandan ümumi sayı 11 500 ədəd "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliyi və müəllim üçün metodik vəsaitlər təqdim edilmişdi.

Bütün görülən işlərlə yanaşı, müasir dövrün çağırışlarına uyğun olaraq, yetişən nəslin vətənpərvərlik ruhunda böyüməsi əsas məsələlərdən birdir. Odur ki, ümumi təhsil müəssisələrində 2018-2019-cu tədris ilində ilk dərslər ibtidai siniflərdə "Vətənim Azərbaycan", V-IX siniflərdə "Dövlət rəmzləri-müstəqilliyimizin simvolu", X-XI siniflərdə "Azərbaycan Xalq Cümhuriyyəti-dövlətçiliyimizin bayraqdarı" mövzularına həsr olunub. Bir sözlə, təhsilimiz gələcəyimizdir.

**Zümrüd BAYRAMOVA**

# Dünyanın heç bir ölkəsi təbiət hadisəsindən sığortalanmayıb

*Paytaxtımızda 40 dəqiqə ərzində yağan yağıntının miqdarı 21 mm təşkil edib ki, bu da aylıq normanın 122%-i deməkdir*

Həyatımıza rəng qatan, onu rəngarəng edən fəsillər bir-birindən gözəlliyi ilə seçilir. Bu gözəlliyi yaradan isə fəsillərin özünəməxsusluğu, baharın ılıq nəfəsi, yayın qızmar istisi, qışın sərt üzü, çovğunu, qarı hər bir insanda böyük sevgi yaradır. Payızın isə öz gözəlliyi - çəni, dumanı, çiskinli yağışı, min rəngə çalan alabəzək bir dünyası var ki, bu, insan ovqatına qəribə duyğular qatır. Yayın istisindən sonra hər bir insan xəzan yaradacaq o gözəlliyi seyr etmək üçün tələsir. Payızın yağışı pəncərələri döyəndə və səni isladanda, bu duyğunu heç nə ilə əvəzləmək olmur. Artıq ölkəmizin hər yerində payızın ətri duyulur. Sentyabrın 23-də yerli vaxtla saat 05:54-də gecə və gündüz bərabərliyi baş verdi və payız fəsli ölkəmizə daxil oldu. Gələn gün də özünü göstərdi. Yayın istisindən çıxan insanlar payızın yağışına qərq oldular. Bakıda səhər saatlarından etibarən yağan güclü yağış hər tərəfi isladtı. Paytaxtımızın bəzi əraziləri, küçə və prospektləri yağış sularına qərq oldu. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin məlumatına istinadən, 40 dəqiqə ərzində yağan yağıntının miqdarı Bakıda 21 mm təşkil edib ki, bu da aylıq normanın 122%-i (norma 17,2 mm) deməkdir. Bu da, fövqəladə hal olaraq, bir növ təbii fəlakət kimi qiymətləndirilir. Fövqəladə Hallar Nazirliyinin müvafiq xilasetmə qüvvələrinin yağıntı suları ilə dolmuş ərazilərə cəlb olunması həyata keçirildi. Nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin, Mülki Müdafiə Qoşunlarının, Xüsusi Riskli Xilasetmə Xidmətinin canlı qüvvə və texnikası paytaxtın müxtəlif rayonlarında suçəkmə işlərinin və digər xilasetmə tədbirlərini həyata keçirdilər. Görülən operativ və təxirəsalınmaz tədbirlər çərçivəsində sakinlərin elektrik enerjisi, təbii qaz və su ilə təminatında heç bir problem yaşanmadı.



Bu, təbiətin bir şıltaqlığı idi. İnsanlar, istənilən halda, təbiətin sürprizlərinə hazır olmalıdır. Yağıntının miqdarının çox olmasını hansısa rezonansla qarşılamaq bir qədər qəbuledilməzdir. Dünyanın istənilən bir ölkəsində baş verən təbiət hadisələri ilə bağlı milyonlarla insanın çıxılmaz vəziyyətdə qalmasının dəfələrlə şahidi olmuşuq. Avropanın aparıcı ölkələrində belə güclü sel və subasmalar olub. Elə bir neçə ay bundan əvvəl Fransanın paytaxtı Parisdə aramsız yağışlar nəticəsində, Sena çayının səviyyəsinin 4 metrə qədər yüksəlməsi nəticəsində şəhərdə əksər yollar su altında qaldı. Bu, Paris küçələrinə çoxlu siçan və siçovulların gəlməsinə səbəb oldu. Türkiyənin cənub-şərqinə yağan güclü yağışlar da bir neçə bölgədə həyatı iflic vəziyyətinə saldı. Leysan yağışlar Diyarbəkr, Mardin və Kilisə ciddi ziyan vurdu. Güclü yağışlar nəticəsində dərələr su ilə doldu, şəhərin küçələri su altında qaldı. Erqani rayonunda kitabxananı su basdı. Dünyada bütün rast gəldiyimiz bu və ya digər hadisələr təbiətin gözlənilməz oyunlarıdır.

23 sentyabrda da Bakıda yağan güclü yağış paytaxt küçələrində fəsadlar yaranmış olsa da, qarşısı bir neçə saatdan sonra alındı. Güclü yağışın yağması təbiət hadisəsi olmaqla, dünyanın bütün ölkələrində baş verir və heç bir ölkə bu kimi hallardan sığortalanmayıb. Buna isə hansısa don geydirib, müxtəlif prizmalardan yanaşmaq düzün mövqe kimi qəbul edilə bilməz.

**Nəzakət ƏLƏDDİNQIZI**

# YAP Ağdam rayon təşkilatının yaradılmasının 25 illik yubileyi qeyd olunub

***Yeni Azərbaycan Partiyasının Ağdam rayon təşkilatında təşkilatın yaradılmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə partiya fəalları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib və xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***



Dəyirmi masa arxasında davam etdirilən tədbiri giriş sözü ilə açan YAP Ağdam rayon təşkilatının aparat rəhbəri Zülfü Qasımov ötən 25 il ərzində görülən işlər barədə ətraflı məlumat verib. O, qeyd edib ki, YAP Ağdam rayon təşkilatının yaradılmasından keçən dövr ərzində çox böyük nailiyyətlər əldə edilmişdir.

Z.Qasımov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası bu gün cəmiyyətdə çox böyük nüfuza malikdir. Partiyanın əsas vəzifələri olan dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi və dünyəvi dövlət qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi Azərbaycan xalqının mənafelərinə, bütünlüklə cavab verir: "Çətin bir şəraitdə yaranan YAP-ın, çox qısa müddətdə, güclü və mütəşəkkil siyasi qüvvə kimi formalaşması, ətrafına insanları toplaması bir daha Ulu Öndər Heydər Əliyev fenomeninin, dühasının qüdrətindən xəbər verir. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Möhtərəm Prezidentimiz İlham Əliyev sosial-iqtisadi yüksəlişə nail olmaqla dünyada Azərbaycanı müasir və inkişaf etmiş dövlətə çevirib. Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" fikri bu gün artıq reallaşıb". Daha sonra YAP rayon təşkilatının digər fəalları çıxış edərək bildiriblər ki, YAP ölkəmizin ictimai-siyasi həyatında uğurla fəaliyyət göstərir və Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox mühüm uğurlara nail olub. Sonda YAP sıralarına yeni üzv qəbul edilmiş bir qrup gəncə partiya vəsiqələri təqdim olunub.

**ZÜMRÜD BAYRAMOVA**

# "Putinin səfərində Qarabağ məsələsi də müzakirə obyekti olacaq"



Son vaxtlar Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sərsəm bəyanatlarla çıxış edir və hədələyici mesajlar səsləndirir. Bu anormal mövqe və fikirlərin Rusiya prezidenti Vladimir Putinin Azərbaycana planlaşdırılan səfəri ərəfəsinə təsadüf etməsi və eyni zamanda, Ermənistanda vətəndaş müharibəsinə zəmin yarada biləcək hadisələrin baş verməsi Paşinyanın normal durumda açıqlamalar verməsi üzə çıxır. Məlum olur ki, Paşinyan isterik vəziyyətində olduğundan sərsəm açıqlamalar verməklə, daxili auditoriyanı sakitləşdirməyə çalışır. Siyasi şərhçi Azər Həsrət "Səs" qəzetinə açılamasında bildirdi ki, siyasətdə naşı olması, üstəlik də, birdən-birə küçədən birbaşa hakimiyyətin zirvəsinə gəlib çıxması Nikol Paşinyanı çətin duruma salıb: "Həm də belə anlaşılır ki, Paşinyanın yaddaş problemi var. Fikirləri, beyni də qarışıqdır. Çünki dünən verdiyi bəyanatı bu gün unudur, tam əksinə bəyanat verir. Ona görə də, artıq Azərbaycanla yanaşı, elə Ermənistanın, hətta Rusiyanın ictimai rəyində Paşinyanın bəyanatlarını "sərsəm bəyanatlar" kimi dəyərləndirənlərin sayı artır. Anlaşılan budur ki, Paşinyan heç özü də bilmir nə etsin, necə etsin. Onun belə davranışı yalnız və yalnız naşılığından, yaddaş problemindən qaynaqlanır. Həm də sabaha aid heç bir planı, proqramı olmadığı üçün ictimai rəyi belə məşğul edir".

"Ermənistan "Əsgər Anaları" təşkilatı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı kimi aksiyalar keçirir. Hakimiyyət isə fərqli mövqe tutur. Demək olarmı ki, erməni cəmiyyətində münaqişə ilə bağlı dərin ziddiyyətlər və fikir ayrılıqlar mövcuddur" sualına cavab olaraq, A.Həsrət bildirdi ki, bu aksiyalar Sargkisyanın prezidentliyi dövründə də aktual idi: "Bu da təbiidir. Çünki Ermənistanda heç də hamı rasional düşüncədən uzaq insanlar deyil. Onların bir qismi - elə bu "Əsgər Anaları" da - başa düşürlər ki, Ermənistanın nicatı yalnız Azərbaycanla dost münasibətlərin qurulmasından asılıdır. Ona görə də, belə aksiyalar keçirirlər, açıq şəkildə də bəyan edirlər ki, erməni gəncləri onlara aid olmayan Azərbaycan torpaqlarında heç nəyin uğruna həlak olmamalıdır. Bu əsgər anaları ümidli idilər ki, Paşinyan hakimiyyətə gələcəyi təqdirdə, məsələ həllini tapacaq. Ancaq az öncə də, dediyim kimi, Paşinyanın özü nəyi necə etməli olduğunu müəyyənləşdirməkdə çətinlik çəkir. Ona görə də, Ermənistan ictimai rəyində belə ziddiyyətli durum yaranıb".

"Sentyabrın 25-də artıq Vladimir Putin Azərbaycana səfərə gəlir. Bu səfər zamanı münaqişənin həlli ilə bağlı müzakirələr aparılacaqmı" sualına cavab olaraq, siyasi şərhçi onu da bildirdi ki, yəqin ki, aparılacaq: "Çünki Rusiya Güney Qafqazda öz təsirini qorumaq, eyni zamanda, Azərbaycan kimi çox əhəmiyyətli bir dövlətlə strateji müttəfiqliyini davam etdirmək üçün mütləq həm də münaqişə məsələlərinə diqqət göstərməlidir. O baxımdan, Putinin bu səfərində Qarabağ məsələsi də müzakirə obyekti olacaq. Nə olacaq, necə olacaq? Bu suallara cavab vermək hələ tezdir. Çünki hazırda əlimizdə konkret necə bir müzakirənin aparılacağıyla bağlı bilgilər yoxdur".

**GÜLYANƏ**



# "Uşaqlar bizim gələcəyimizdir"

## *Bu mövzuda YAP Pirallahı rayon təşkilatı 4 saylı xüsusi internat məktəbində tədbir keçirib*

***Dünən Pirallahı rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı və Azərbaycan Qızıl Aypara Cəmiyyəti Pirallahı rayon bölməsinin birgə təşkilatçılığı ilə Bakının Şüvəlan qəsəbəsində yerləşən 4 nömrəli Respublika Xüsusi İnternat Məktəbində "Uşaqlar bizim gələcəyimizdir" başlığı altında tədbir keçirildi.***

Tədbiri giriş sözü ilə açan 4 nömrəli Respublika Xüsusi İnternat Məktəbinin direktoru Vəfa Seyidova 1967-ci ildən fəaliyyət göstərən məktəbin 2013-cü ildə Heydər Əliyev Fondu tərəfindən söküləræk yenidən inşa olunması, fəaliyyəti barədə məlumat verdikdən sonra valideyn himayəsindən məhrum olan uşaqlara dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışdı.

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov isə çıxışında vurğuladı ki, ölkəmizdə uşaqların gələcəyi ilə bağlı müxtəlif layihələr həyata keçirilir. Xüsusilə, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun prioritet məqsədlərindən biri uşaqlara diqqət və qayğı göstərməkdir. Fondun qüvvəsi əhalinin ən zəif, xüsusi müdafiəyə ehtiyacı olan təbəqələrinə, ilk növbədə, xəstə uşaqlara, eləcə də, dünyada ən qiymətli nemətdən - valideyn məhəbbətindən və qayğısından məhrum olmuş balalarımıza kömək göstərilməsinə yönəlib: "Ümummilli Lider Heydər Əliyev uşaqların ən yaxın dostu və qayğıkeşi idi. Bu gün Ümummilli Lider Heydər Əliyev siyasətinin layiqli davamçısı olan ölkə Prezidenti İlham Əliyev tərəfindən uşaqlara diqqət və qayğı dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Uşaqlar bizim gələcəyimizdir. Günü-gündən inkişaf edən, çiçəklənən respublikamızın gələcəyi sizlərin əlindədir. Bu gün Pirallahı rayon icra hakimiyyəti, YAP Pirallahı rayon təşkilatı və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Pirallahı rayon bölməsinin əməkdaşları tanınmış incəsənət nümayəndələri ilə birgə sizin qonağınızdır. Sizə sağlam həyat, uğurlu təhsil arzu edirəm".

Tədbir tanınmış incəsənət nümayəndələrinin, müğənni və rəqqasələrin maraqlı çıxışları ilə davam etdi.

**RÖVŞƏN NURƏDDİNOĞLU**

# YAP Ağdam rayon təşkilatının yaranmasının 25 illik yubileyi ilə əlaqədar iməcilik keçirilib

***Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının yaranmasının 25 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərin, davamı olaraq, təşkilatın rayon icra hakimiyyəti ilə birgə Quzanlı qəsəbəsi və Xındırıstan kəndi arasında magistral yol boyu ümumrayon iməciliyi keçirilmiş, ərazidə səliqə-səhman yaradılmışdır.***





İməcilikdə rayon icra hakimiyyətinin nümayəndələri, YAP Ağdam rayon təşkilatının fəalları, ilk partiya təşkilatının sədrləri, rayonun idarə, müəssisə və təşkilatlarının kollektivləri iştirak ediblər.

**ZÜMRÜD**

# Müsavatla AXCP-nin çözülən çarəsiz “xəstəliyi”



***Yarandığı gündən dağıdıcı düşərgənin inhisarı uğrunda mübarizə ilə yadda qalan, şəxsi maraqların vasitəçisinə çevrilən fikir ayrılığı artıq tam aydınlığa qovuşduğu üçün AXCP-Müsavat partiyaları arasında savaş getdikcə qızışmaqdadır. Çünki hansısa əməkdaşlıq nağılı artıq partiya üzvlərinə belə inandırıcı görünmür. Mübarizə o qədər açıq müstəvidə gedir ki, İ.Qəmbərlə Ə.Kərimli və onun ardınca Arif Hacılının bir-birilərinə qarşı apardıqları gözdənsalma kampaniyası sıravi partiya üzvləri tərəfindən də hiss edilir. Sosial şəbəkələrdə müsavatçıların Ə.Kərimli haqqında, cəbhəçilərin isə İ.Qəmbər haqqında “meyxana” qoşması, ən təhqiramiz ifadələrdən istifadə etməsi artıq adi hal alıb. Hətta bəzi partiya rəsmiləri bu məsələdən kampaniya şəklində istifadə olunduğunu belə etiraf edirlər. Belə ki, bir müddət öncə, Müsavat partiyasının ali məclisinin üzvü Mustafa Hacıbəyli bildirdi ki, sosial şəbəkələrdə Müsavat rəhbərinə qarşı təhqir dolu fikirlərin səsləndirilməsi kampaniyasının arxasında Ə.Kərimli dayanır.***

*Araz Əlizadə: “Bu iki partiya arasındakı münasibətlərin kökü hakimiyyətdə olduqları dönəmdən başlayır”*

Başqa-başqa adlar altında aparılan bu qarşılıqlı kampaniya isə, hələ də davam edir. Bu kimi davamiyyət isə, ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verməkdədir.

### Müsavat AXCP-ni, cəbhəçilər isə Müsavatı qınamaqdadırlar

Bəs bu qınağın, bu qovğanın səbəbi nədir, nəyi bölüşdürə bilmirlər? Əslində, bəllidir, “dava yorğan davasıdır”. Daha doğrusu, hər iki partiyanın sədrləri özlərini düşərgənin “lideri” sayır. AXCP sədri Ə.Kərimli İ.Qəmbəri satılmaqda ittiham edir, İsa Qəmbər də Əli Kərimlini. Ümumilikdə, hər iki partiyada baş verənlərə diqqət yetirdikdə, onların ciddi bir işi ortaya qoya bilmədikləri üzündən bu qovğalar baş verir.

### Dəyirman öz işində, çax-çax baş ağrıdır

Amma necə deyərlər, “dəyirman öz işində, çax-çax baş ağrıdır”. Daxildəki gərginliyi gizlətmək istəyən partiya finksionerləri bu prosesi fikir plüralizmi kimi təqdim etməyə çalışsalar da, artıq bunun “o xına” olmadığı görünür. Müsavat partiyasının daxilindəki narazılıqlar partiyanın bölünməsi və dağılması kimi qeyd olunur. Hətta Müsavat başqanının müavini Osman Kazımov özünün facebook səhifəsində “gedən prosesləri nəzərə alıb heç nədən çəkinmədən partiyada təmizləmə aparmaq lazımdır” deyir. Sabiq müsavatçı Səxavət Əlisoy isə partiyanın başqanı A.Hacılının barışıq çağırışına cavab olaraq, bildirib ki, problemlərin obyektiv çözülməsi üçün lazımlı addımlar atılmalı, partiyanın monolitliyi naminə etiraf etməyi bacarmalıdır.

Göründüyü kimi, Müsavat partiyası “çalxalanır”, amma heç də AXCP bu vəziyyətdən istifadə edib, ondan önə çıxmaq gücündə deyil. Çünki bu partiyanı da istefalar öz ağuşuna alıb. Sədrin sabiq müşaviri Şakir Abbasov neçə ildir düz yolda olmadıqlarını deyib. Ş.Abbasov hələ AXCP sıralarında olanda, onu müsavatçı olmaqda ittiham etdiklərini söyləyib. O, “Biri xaricə adam keçirməklə, biri pul qoparmaqla məşğuldur. Məni İsa Qəmbərin adamı adlandırırdılar. Müsavat kimdir, siz kimsiniz? Əgər hər ikiniz müxalifət partiyası adını daşıyırsınızsa, millətin halına yanmaqdansa, bir-birinizin üstünə düşmüsünüz. Özlərinə də demişəm açacağam sandığı, tökəcəyəm pambığı. Bir qrup maaş alan var, adlarını müxalifətçi qoyublar. İndi “Milli Şura”ya dürtdükləri adamlar arasında əməlli-başlı oyun gedir.

### Arif Hacılı yenidən sabiq müsavatçılara qarşı

Cavabı bəllidir. Çünki hər iki partiya sədrlərinin təfəkkürlərində və düşüncələrində bu günə kimi bir dəyişiklik olmayıb. Kor tutduğunu buraxmadığı kimi, hər iki partiya sədri özünü “lider” hesab edir. Hətta sədrlər kiçik bir etirazdan dərhal xoflanır, kürsülərinin əldən veriləcəyindən ehtiyat etməyə başlayırlar. Elə götürək Müsavat başqanı A.Hacılını. Sosial şəbəkələrdə ona qarşı çıxanları partiyadan uzaqlaşdırır. Məhz keçmiş müsavatçılar A.Hacılını diktatorluqda ittiham edirlər.

### AXCP-də də eyni durum yaşanır

AXCP-də də eyni vəziyyət yaşanır. Partiya funksiyaları bildirir ki, ölkə müxalifətinin bu günkü ağır duruma düşməsində əsas rol oynayan Ə.Kərimlidir: “Əli Kərimlinin şəxsi ambisiyaları üzündən müxalifət düşərgəsində parçalanma baş verir. Ə.Kərimli digər partiyaları həmişə özünə rəqib kimi deyil, düşmən gözündə görür”.

AMİP funksioneri Ə.Orcuov bildirib ki, AXCP-Müsavat qarşıdurması birinci dəfə deyil, sonuncu da olmayacaq: “Azərbaycanda hər seçkiöncəsi AXCP-Müsavat qarşıdurması özünü daha qabarıq şəkildə büruzə verir. Hətta bu faktorun bir ənənə şəklini alması iddiaları da özünü kifayət qədər doğruldub. İki partiya arasında yaşanan ixtilaflar ilk dəfə deyil. Bu, bir daha sübut edir ki, onlarda ümumi maraqlar deyil, şəxsi maraqlar hər şeydən üstün olduğuna görə, həmin partiyalar arasında davamlı gərginlik yaşanır. Beləliklə, aydın olur ki, AXCP və Müsavat partiyaları arasında qarşıdurmalar əbədi olaraq davam edir. 1992-ci ildən başlayaraq AXCP-Müsavat arasında gözlə görünməsə də, bəzi hallarda daha kəskin xarakter alan qarşıdurma mövcuddur”.

Xüsusilə, qeyd etmək mümkündür ki, ənənəvi qarşıdurmalar hələ “Yurd” qrupunun daxilindən qaynaqlanaraq, hazırkı həddə qədər inkişaf edib. Bəlli olduğu kimi, hələ 90-cı illərin ortalarında parçalanmamış AXC-nin tərkibində yaradılan “Yurd”-a rəhbərliyi Ə.Kərimli edib. “Yurd”un əsas məqsədi Əbülfəz Elçibəyin siyasi arenadan kənarlaşdırılması, eləcə də, Əli Kərimlinin cəbhənin sükanı arxasına keçməsi ilə bağlı olub ki, bu istiqamətdə davamlı işlər aparılıb. Hətta mərhum Elçibəyin haqqında partiyaya məxsus “Azadlıq” qəzetində çirkin yazılar yazdıran Kərimli lideri barədə deyilməyəcək dərəcədə təhqirlər səsləndirirdi. Belə olan halda, partiyanın parçalanması da labüd hala söykənirdi. Bu gün AXCP-nin bir neçə qanada - KXCP-yə, BAXCP-yə, DİP-ə, BQP-yə ayrılması arasında da, məhz Ə.Kərimli amilinin dayanması şübhəsizdir. Bu gün dağıdıcı müxalifət düşərgəsində AXCP ilə Müsavat hansı formada özlərinə bəraət qazandırsalar da, xalq onların kim olduğunu yaxşı bilir və görürdü. Bu, o İ.Qəmbər, Ə.Kərimli, A.Hacılıdır ki, 1992-ci ildən başlayaraq, Azərbaycan dövlətinə və xalqına qarşı xəyanət etməsi, antimilli sazişlərə, hətta ermənilərlə əməkdaşlığa dair müqavilələr imzalamaları onları cəmiyyətdə qəbuledilməz şəxslərə çevirib. Son hadisələr isə, AXCP ilə Müsavat arasında dərin uçurum yarandığını göstərir. Müxalifət daxilində də “mehriban düşmənlərin” artıq iç üzünün açıldığını deyənlərin sayı isə gündən-günə artır. Bu kimi davamiyyət isə ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verməkdədir.

**R.HÜSEYNOVA**

---

**SİYASİ RAKURS**

# Əli Kərimli Oqtay Gülalıyevə partiya yaradacaq?

## *KXCP-də baş verən qarşıdurmaların kökü bəlli olur*



***KXCP-də baş verən qarşıdurmaların kökündə AXCP sədri Əli Kərimlinin “barmağının” olması artıq sirr deyil. Daha dəqiq desək, Mirmahmud Mirəlioğlunun sədri olduğu partiyanı birdəfəlik çökdürmək üçün, məhz “klassiklər”in nümayəndəsi Oqtay Gülalıyev “kartından” istifadə edən Ə.Kərimli bunun qarşılığında O.Gülalıyevə yeni siyasi partiya yaratmasına kömək edəcəyini vəd verib. Halbuki daha öncə, Gülalıyevin KXCP-də sədr seçilmək iddiasının olduğu bildirilirdi. Belə ki, “klassiklər”in qurultayı ərəfəsində yaşanan qalmaqallara əsas səbəblərdən biri də O.Gülalıyevin ali məclis üzvlüyündən çıxarılması olmuşdu.***

### Oqtay Gülalıyevin, bütövlükdə, KXCP-dən çıxarılması planlaşdırılır

M.Mirəlioğlu, bunu belə əsaslandırmışdı ki, O.Gülalıyev KXCP-nin “Milli Şura”da təmsil olunmamasına rəğmən, həmin qurumda təmsil olunmaqla yanaşı, həmçinin koordinasiya şurasına üzvdür. Beləliklə, O.Gülalıyevin KXCP-nin qərarlarına hörmətsiz davrandığı əsas gətirilərək, onun ali məclisə üzvlük postundan uzaqlaşdırılması barədə qərar verilib. Hazırda isə, onun, bütövlükdə, partiya sıralarından xaric edilməsi planlaşdırılır.

Bu arada, KXCP sədri M.Mirəlioğlu bildirib ki, son vaxtlar rəhbərlik etdiyi siyasi təşkilata qarşı hücumlar olunur və bunun da kökündə AXCP sədri Ə.Kərimlinin dayanması kimsədə şübhə yaratmır. “Ciddi təşkilatlar haqqında çox iddialar irəli sürülə bilər, ancaq onları yerinə yetirmək mümkün olmaz” deyən Mirəlioğlu bu gərginlik yaratma cəhdlərinin heç bir nəticə verməyəcəyini bildirib. Ancaq görünən budur ki, gərginlik, həqiqətən də, var və bununla yanaşı, O.Gülalıyevin KXCP-də tərəfdarları da meydana çıxaraq, onun mövqeyini müdafiə edirlər. Əgər M.Mirəlioğlu və tərəfdarları bu gərginlik həddini aşa bilərlərsə, qurultaydan sonra siyasi təşkilatdan xeyli insanın çıxarılacağını istisna etmək olmaz.

### Əli Kərimli tərəfindən yaradılacaq partiya AXCP-nin “peyki” olacaq?

Yuxarıda da qeyd etdiyimiz kimi, Gülaliyevin Mirəlioğluna qarşı bu cür ayaqlanmasının arxasında Kərimlinin dayandığı bu və ya digər şəkildə isbatlanıb. Lakin əvvəlcə Gülalıyevin sədrlik uğrunda mübarizə aparacağı deyilirdisə, indi KXCP-nin tam şəkildə siyasi arenadan silinməsi planı işlənib. Ə.Kərimli O.Gülalıyevə bunun yerinə yeni və daha səmərəli siyasi təşkilat yaradacağını deməklə, onu bu işdə həvəsləndirib. Əgər AXCP sədrinin planı baş tutarsa, KXCP-ni iflasa uğrada bilərsə, O.Gülalıyev üçün vəd edilən siyasi təşkilat yaradılacaq və həmin təşkilat bilavasitə AXCP-nin “peyk” partiyası kimi fəaliyyət göstərəcək.

Ancaq bu planların nə qədər tez realizə ediləcəyini də demək olmaz. Çünki baş verənlərdən xəbərdar olan M.Mirəlioğlu və onun tərəfdarları, bütün mənalarda hazırlıq işləri görüblər. Məqsəd isə belədir: ediləcək hər bir mümkün hücumun qarşısını almaq.

### Mirmahmud Mirəlioğlu, əslində, hazırladıqları qabaqlayıcı planlarının açığa çıxmasından ehtiyat edir

Çox yəqin ki, sözügedən məsələyə dair sualları cavablandırmaqdan yayınan M.Mirəlioğlu, əslində, hazırladıqları qabaqlayıcı planlarının açığa çıxmasından ehtiyat edir. Bu baxımdan, jurnalistlərin verdiyi cavabı da bu cürdür: “Başqa sualınız varsa, buyurun, ancaq bu məsələ mənim maraq dairəmdə deyil. Düzdür, bu məlumatlar bizim partiya barəsindədir, ciddi təşkilatlar haqqında çox iddialar irəli sürülə bilər, ancaq onları yerinə yetirmək mümkün olmaz. Ona görə də, məni məzur tutun, bu sualınızı cavablandırmıram”. Nəticə etibarilə, belə qənaətə gələ bilərik ki, artıq yaxın günlərdə O.Gülalıyev vasitəsilə KXCP-də savaş cəbhəsi açan Ə.Kərimli gec, ya da tez, özü bu savaşı açıq elan edəcək və bu qarşıdurma AXCP-KXCP ziddiyyəti olaraq qiymətləndiriləcək.

**Rövşən NURƏDDİNOĞLU**

# “REAL”-dan AXCP-yə yeni ittihamlar irəli sürülüb

***Bu gün müxalif düşərgədə ən çox danışılan mövzulardan biri də “REAL” partiyasının sədri İlqar Məmmədovla müxalifətin “anası”, “atası” hesab edən siyasi təşkilat rəhbərləri arasında olan qarşıdurmalardır. Müxalifət liderləri iddia edirlər ki, “REAL” sədri İ.Məmmədov öz partiyasına rəhbərlik etməyə qadir olacağına əmin olmadığı halda, bütünlüklə, müxalifət düşərgəsinin “lideri” olacağı və “müxalifəti yeniləşdirəcəyi” iddiasına necə nail olacaq?***

Əslində, bir məqama da toxunmaq istərdik ki, parlament və prezident seçkiləri ərəfəsi və sonrası düşərgədə yaranan hərcmərclik nəticəsində, yeni-yeni təşkilatlar yaranarkən, belə iddialar irəli sürülürdü ki, onlar müxalifətə yeni siyasi nəfəs gətirəcək, köhnə düşüncəli partiyaları sıradan çıxarmağa nail olacaqlar. Ancaq fakt budur ki, belə iddiaların heç biri gerçəkləşmədi. Misal olaraq, “AzDP”, “ACP”, “GAP”, “Ağ Partiya”, “ADR” hərəkatı və s. təşkilatları göstərə bilərik.

“REAL” sədri İ.Məmmədovun ortalığa çıxması bu məsələdə az-çox fərq edir. Xüsusilə də, İ.Məmmədovun həbsdə olması düşərgə “liderləri”nə daha çox sərf edirdi. İ.Məmmədovun həbsdən çıxması müxalifət liderlərini, ən çox ona görə narahat edir ki, “REAL” sədri “müxalifəti yeniləşdirmək” iddiası ilə çıxış etməkdə məqsədi illərlə müxalifətin “anası-atası” davasına son qoyub, bu “titula” sahib olacaq. Görünür, bu səbəbdən, İ.Məmmədov faktoru düşərgədəki partiya rəhbərlərini xoflandırır.

**Natiq Cəfərli: “AXCP və Müsavat kimi partiyalar öz tərəfdarları ilə yanaşı, hər kəsi özününküləşdirməyə çalışıblar”**

“REAL”-ın icraçı katibi Natiq Cəfərli İ.Məmmədovun həbsdən çıxdıqdan sonra niyə düşərgə liderlərinin canına vicvicə düşdüyünə aydınlıq gətirərək, bildirib ki, bu partiyalar zəif olmaqla fəaliyyətlərində bu 25 il ərzində bir yenilik olmayıb. Bütün seçkilərdə biabırçı məğlubiyyətlərlə üzləşiblər. Bütün bunlardan sonra hələ də “iddialı” çıxışlar etmək, ataların dediyi kimi, “utanmasan, oynamağa nə var ki?” məsələni xatırladır.

N.Cəfərlinin sözlərinə görə, cəbhəçilər İ.Məmmədov həbsdə olanda da, indi də ona qarşı olublar: “Belə ki, bu, o cəbhəçilərdir ki, “REAL”-çıları və konkret İ.Məmmədovu İsmayıllı hadisələrində şou göstərməkdə, “REAL”-çılar isə, Ə.Kərimli və AXCP-çiləri 20 Yanvar günü şou göstərməkdə ittiham ediblər”.

**Araz Əlizadə: “Ən gülünc məsələ isə İlqar Məmmədovun hakimiyyətlə debata hazır olması fikirləridir”**

ASDP sədri, millət vəkili Araz Əlizadə “REAL” sədrinin hakimiyyət iddiasında olmasını gülünclük hesab edib: “Ən gülünc məsələ isə İ.Məmmədovun hakimiyyətlə debata hazır olması fikirləridir. Qərbin qulbeçəsi anlamır ki, siyasətlə məşğul olan şəxs qətiyyən təhqirə yol verməməlidir. Ancaq saxta qəhrəman obrazı yaradan bir qeyri-real siyasətçi anlamır ki, bu yol onun siyasi məhvi olar. Görünür, Məmmədov azadlığa adaptasiya olunana qədər, hətta sonra da bu cür səhvlərlə özünü çətin vəziyyətdə qoyacaq və İlqar Məmmədov tərəfindən atılan addımların arxasında qərəzin dayandığı aydın şəkildə görünməkdədir”.

A.Əlizadənin sözlərinə görə, siyasətçilər etik davranış qaydalarına xüsusi əməl etməlidirlər: “Təhqirə yol verənlərə qarşı tədbirlər görüləndə, bunu siyasi motivli təzyiqlər kimi qiymətləndirirlər. Amma çox vaxt özləri buna rəvac verirlər. Sanki hakimiyyəti məcbur edirlər ki, bunlara qarşı sərt tədbirlər görsün”.

Millət vəkili, həmçinin, bildirib ki, onun başını ABŞ səfirliyində xarab ediblər: “İ.Məmmədov bundan sonra istəsə belə, normal addım ata və fikir söyləyə bilməz. O, artıq müəyyən şəxslərin və qüvvələrin təsiri altındadır. Bundan sonra müxtəlif pozucu addımların atılmasına təhrik ediləcək. Amma nə edirsə-etsin, nəticə əldə edə bilməyəcək. Çünki cəmiyyət radikalları qəbul etmir”.

Bəli, görünür, saxta və yararsız müxalifət “liderləri” gündəmdə qalmaqdan ötrü İ.Məmmədov mövzusunu çox hallandıracaq. Bu, birmənalı həqiqətdir ki, nə bu gün, nə də gələcəkdə isa qəmbərlərin, əli kərimlilərin düşüncəsi ilə ölkədə siyasi fəaliyyətlərini quranlara Azərbaycan xalqı heç zaman etimad göstərməyəcəkdir.

***Rəfiqə HÜSEYNOVA***

# “Bakcell”in baş icraçı direktoru startap və telekommunikasiya sahəsinin rəqəmsallaşması barədə danışdı

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell telekommunikasiya sahəsinin yerli və beynəlxalq səviyyədə inkişafına öz töhfəsini vermək məqsədilə dünyanın ən nüfuzlu tədbirlərində iştirak edir.***



“Bakcell”in baş icraçı direktoru Nikolai Beckers IBM, “Wipro”, “Ericsson”, “Verizon”, “Etisalat”, “Batelco Group”, “Turk Telecom” və digər nüfuzlu şirkətlərin rəhbərləri ilə birgə “Telecoms World Middle East 2018” beynəlxalq konfransına xüsusi dəvət olunaraq bu sahənin ən mötəbər liderlərindən ibarət məruzəçilər siyahısında yer alıb. Dubay şəhərində 17-18 sentyabr tarixində keçirilmiş “Telecoms World Middle East” tədbiri Yaxın Şərqin ən mühüm və aparıcı telekommunikasiya tədbirlərindən biri hesab olunur. Nikolai Beckers və telekommunikasiya sahəsinin digər tanınmış mütəxəssisləri bir araya gələrək əməkdaşlıq, innovasiya və dünyanın telekommunikasiya ekosisteminin ümumi strategiyasını müzakirə ediblər.

Startap, inkubasiya və telekommunikasiya sahəsinin rəqəmsallaşmasına həsr edilmiş paneldə “Turk Telecom” şirkətinin baş direktoru Paul Doany və Nikolai Beckers telekommunikasiya sənayesinin indiki vəziyyəti və bu sahənin gələcək uğurlarının təmin edilməsində rəqəmsallaşmanın və startapların rolu barəsində danışıblar. “Rəqəmsallaşmaya hazır olmaq üçün bir sıra tədbirlərin görülməsi zəruridir və sənayenin liderləri əsas və fundamental məsələlərə xüsusi diqqət yetirməlidirlər. İlk növbədə konsolidasiya həyata keçirilməli, biznesin daxili prosesləri və təşkilati strukturu sadələşdirilməlidir. Bildiyiniz kimi, ənənəvi telekommunikasiya operatorları adətən olduqca bürokratik təşkilati struktura malikdir və bu cür strukturda innovasiya və rəqəmsallaşmanın tətbiq edilməsi elə də asan deyil. Bunun həlli yolu isə əsas təşkilatdan kənarında ayrıca bir qurum yaratmaqdır. Bu qurum insanlara öz ideyalarını daha sərbəst şəkildə irəli sürmək imkanı verməli və eksperimentlərə açıq olmaq üçün münbit şərait təmin etməlidir. Bu cür yanaşmanı Bakcell özünün “AppLab” inkubasiya proqramı vasitəsilə nümayiş etdirir”, deyə Nikolai Beckers bildirib.

Qeyd edək ki, “AppLab” proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün “Bakcell”dən dəstək alırlar. “AppLab” layihəsinin iştirakçıları pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı ideyaları və üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. “AppLab” Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.

“İnnovasiyaların tətbiq edilməsi üçün sərbəstlik və məsuliyyət kimi amillər vacibdir. Yalnız bu iki element mövcud olduğu halda rəqəmsallaşma da mümkün olacaq. Klassik telekommunikasiya təşkilatıları nəzarət və əmrlər üzərində qurulub, bu da innovasiyaların inkişafına müəyyən maneçilik törədir. Həmçinin, startaplar vasitəsilə yaradılan yeniliklər əsas təşkilatın strukturuna inteqrasiya olunmalıdır, bu da dünyanın telekom provayderləri tərəfindən nəzərə alınmalı digər vacib bir məsələdir”, deyə Nikolay Beckers əlavə edib. Nikolai Bekers Bakcell şirkətinin baş icraçı direktoru vəzifəsinə 2016-cı ildə təyin olunub. Bundan qabaq o, Qərbi və Şərqi Avropa və Cənub Şərqi Asiya ölkələrinin qabaqcıl telekommunikasiya şirkətlərində müxtəlif rəhbər vəzifələrdə çalışıb. Nikolay Beckersin iş təcrübəsi dünyanın ən rəqabətli telekommunikasiya bazarlarında mühüm biznes uğurlarının qazanılmasında strateji əhəmiyyət kəsb edən fəaliyyətləri və layihələri əhatə edib.

# “Nar” korporativ müştərilərlə növbəti görüş keçirib

***Sentyabrın 22-də “Nar” operatoru özünün korporativ müştəriləri ilə növbəti görüş keçirib. 100-ə yaxın şirkətdən 250-yə qədər nümayəndənin dəvət edildiyi görüşün keçirilməsində əsas məqsəd korporativ müştərilərə mobil operatorun yeni imkanları barədə məlumatın verilməsi və əlaqələrin gücləndirilməsidir. Görüşdə “Nar” ilə əməkdaşlıq edən şirkətlər iştirak ediblər. “Cinema Plus” kinoteatrında baş tutan görüşdən sonra qonaqlar “Nar” zalında “Johnny English 3” adlı yeni filmə tamaşa ediblər. Filmdən sonra iştirakçılar arasında lotoreya keçirilib. Qalib müştərilərə “Nar” tərəfindən xüsusi hədiyyələr verilib.***



Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran “Nar” artıq daha sərfəli şərtlərlə əməkdaşlıq təklif edir. Mobil operator biznes üçün nəzərdə tutulmuş tarif planlarının tərkibində olan bonusları da artırıb. Bundan başqa, korporativ tarif planlarına şirkətdaxili limitsiz danışıq dəqiqələri əlavə edilir. Sözügedən tariflər aylıq 8 AZN-dən başlayan abunə haqqı ilə təklif olunur. Korporativ tarif planlarına qoşulan abunəçilər istər səsli xidmətlər, istərsə də mobil internet üçün sərfəli tariflərdən yararlanmaqla yanaşı, 24/7 rejimində çalışan xüsusi müştəri xidmətlərindən və yüksəkkeyfiyyətli mobil şəbəkədən də istifadə edirlər.

Korporativ tərəfdaşlıq üçün 777 telefon nömrəsi və ya business-nar-@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Təkliflərdən yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər yararlana bilərlər.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən “Nar” şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

# "Coşkun Kauçuk" MMC-yə məxsus olan istehsal məhsulları, xammal və avadanlıqların satışı barədə elan

| S/№ | Məmulatın adı | Qiyməti (manat) |
|---|---|---|
| 1 | Hızlı Dəlmə Dəzgahı | 4200 |
| 2 | Vulkanize Kauçuk Pres 300 t | 10100 |
| 3 | Vulkanize Kauçuk Pres | 3400 |
| 4 | Vulkanize Kauçuk Pres | 9200 |
| 5 | CNC Telerezyon | 10100 |
| 6 | Su soyutma vannası | 2300 |
| 7 | Alın qaynaq makinası | 15550 |
| 8 | İsti hava tuneli | 18800 |

| S/№ | Məmulatın adı | Ölçü vahidi | Miqdarı | 1 metr qiyməti (manat) | Ümumi qiymət (manat) |
|---|---|---|---|---|---|
| 1 | CKS SU10-1905 | metr | 305 | 3.11 | 948 |
| 2 | CKS SU10-2510 | metr | 915 | 3.43 | 3138 |
| 3 | CKS SU10-3175 | metr | 305 | 4.34 | 1323 |
| 4 | CKS SU10-3810 | metr | 305 | 4.74 | 1445 |
| 5 | CKS SU10-5080 | metr | 305 | 7.3 | 2226 |
| 6 | CKS SU10-6350 | metr | 305 | 9.83 | 2998 |
| 7 | CKS SU10-7620 | metr | 122 | 13.26 | 1617 |
| 8 | CKS SU10-1905 | metr | 305 | 2.91 | 887 |
| 9 | CKS SU10-2540 | metr | 1220 | 3.29 | 4013 |
| 10 | CKS SU10-3175 | metr | 610 | 4.08 | 2488 |
| 11 | CKS SU10-3810 | metr | 305 | 4.57 | 1393 |
| 12 | CKS SU10-5080 | metr | 1220 | 6.45 | 7869 |
| 13 | CKS SU10-6350 | metr | 305 | 8.93 | 2723 |
| 14 | CKS SU10-7620 | metr | 305 | 11.63 | 3547 |

| Sıra | Adı | Miqdarı | Qiymət | Toplam |
|---|---|---|---|---|
| 1 | FEF N 550 | 20700 | 1.78 | 36846 |
| 2 | KEP 650 | 218 | 4.89 | 1066.02 |
| 3 | Kep 2480 | 750 | 5.34 | 4005 |
| 4 | RSS3 kauçuk | 901.7 | 6.17 | 5563.489 |
| 5 | Nitril | 450 | 5.93 | 2668.5 |
| 6 | Profor | 38 | 15.39 | 584.82 |
| 7 | 4010 | 41 | 8.65 | 354.65 |
| 8 | ozonwax | 40 | 3.68 | 147.2 |
| 9 | CBR | 280 | 3.6 | 1008 |
| 10 | PEG 4000 | 475 | 4.41 | 2094.75 |
| 11 | ZDEC | 280 | 1.03 | 288.4 |
| 12 | ZDBC | 350 | 7.11 | 2488.5 |
| 13 | DTDM | 600 | 11.02 | 6612 |
| 14 | TMTD | 750 | 7.46 | 5595 |
| 15 | S 80 Granur | 80 | 3.74 | 299.2 |
| 16 | Kaydirici | 500 | 5.15 | 2575 |
| 17 | TMQ | 25 | 7.3 | 182.5 |
| 18 | TNQ | 25 | 5.44 | 136 |
| 19 | SIO 2 | 200 | 2.99 | 598 |
| 20 | CAO | 3045 | 0.91 | 2770.95 |
| 21 | Silanogran | 25 | 21.17 | 529.25 |
| 22 | Titan Dioksid | 25 | 8.6 | 215 |
| 23 | DPG | 25 | 14.85 | 371.25 |
| 24 | CBS 80 | 20 | 14.94 | 298.8 |
| 25 | CINKO | 100 | 7.45 | 745 |
| 26 | MBTS | 350 | 9.64 | 3374 |
| 27 | AK 15 | 7375 | 0.57 | 4203.75 |
| 28 | Karobka 1 | 2225 | 0.87 | 1935.75 |
| 29 | Dairə | 1089 | 0.23 | 250.47 |
| 30 | Palasa | 1833 | 0.1 | 183.3 |
| 31 | Kley | 40 | 21.18 | 847.2 |
| | YEKUN | | | 88837.749 |

Qeyd : satışın təcililiyini nəzərə alaraq mallara likvid qiymətlər tətbiq edilir.
Ünvan: Bakı-Sumqayıt şosesi, Sahibkarlar anbarı

**Əlaqə nömrəsi: 050-2431496**

# AzerTelecom "Türkmentel 2018" sərgisində iştirak edəcək

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom cari ilin 10-12 oktyabr tarixlərində Türkmənistanın Aşqabad şəhərində keçiriləcək "Türkmentel 2018" 11-ci Beynəlxalq Telekom və İT Sənayesi sərgisində təmsil olunacaq.***

Şirkətin sərgidə stendlə iştirak məqsədi telekommunikasiya xidmətlərinin Türkmənistanda sərginin yerli və beynəlxalq iştirakçılarına təqdim edilməsi, onlar ilə fikir və təcrübə mübadiləsi, texnoloji yeniliklərlə tanış olmaq, eləcə də şirkətin beynəlxalq əlaqələrinin daha da genişləndirilməsidir.

Sayca 11-ci olan "Türkmentel 2018" Telekom və İT Sənayesi sərgisində bir çox yerli və xarici şirkətlərin telekommunikasiya və şəbəkə, informasiya texnologiyaları infrastrukturu və data mərkəz, telemetriya və ölçü vasitələri, rəqəmsal biznes həlləri, simsiz kommunikasiya, peşəkar audio və video yazma avadanlıqları və s. sahələrdə məhsulları təqdim olunacaq.

Qeyd edək ki, AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. Bu şəbəkə Naxçıvan Muxtar Respublikasını da əhatə edir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

# Siqareti yerə atanlar 50 manat cərimələnəcək



Azərbaycanda qadağan edilən yerlərdə siqaret çəkilməsini təklif edənlərə cərimə tətbiq olunacaq. SİA xəbər verir ki, bununla bağlı İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilir. Dəyişikliyə əsasən, məcəllənin 212-ci (Tütün məmulatının istehlakına dair məhdudiyyətlərə riayət edilməməsi) maddəsinə 5-ci bənd əlavə edilir.

Əlavə edilən bəndə qeyd olunub ki, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunla qadağan edilən yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yer istisna olmaqla) tütün çəkilməsinə şərait yaradılmasına, yaxud tütün çəkilməsinin təklif edilməsinə görə vəzifəli şəxslər 500 manat, hüquqi şəxslər 1200 manat məbləğində cərimə ediləcək. Bundan başqa, tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə 50 manat məbləğində cərimə nəzərdə tutulur.

# Əli Nəzmi yaradıcılığında qadın hüquqlarının müdafiəsi

***"Molla Nəsrəddin" məktəbinin nümayəndələri qadınların hüquqlarına, onlara qarşı olan zorakılığa, ailədə mövqelərinə xüsusi fikir verirdilər. Jurnalın ən ciddi problemlərindən biri də qadın azadlığı problemi idi. Ədiblər ən çox problemi qadının çarşabdan azad olması kimi görürdülər. Cəmiyyətdə qızların təhsilinin qayğısına qalır, onların qoca kişilərə ərə verilməsini, çoxarvadlılığı, siğə və mütə nikahlarına, əsarət və hüquqsuzluğa qarşı çıxış edirdilər.***

Onlar xalqın maariflənməsi, xüsusilə, qadınların savadlı olmasını müdafiə edirdilər. Qadın uşaqların tərbiyəsi ilə məşğul olduğu üçün elmə, maarifə və mədəniyyətə yiyələnməlidir. Qadın azadlığı problemini ictimai-siyasi azadlığın tərkib hissəsi kimi götürürdülər. Millətin cəhalətdə yaşamağının səbəblərindən biri və əsası qadının savadsızlığıdır. "Molla Nəsrəddin" jurnalı müsəlman aləmində və Rusiyada geniş yayılmışdı. Jurnal bir neçə il Təbriz şəhərində nəşr olunmuşdu. İranda jurnalın, yeni "Molla Nəsrəddin" məktəbinin davamçıları və tərəfdarları vardı. İranda olan despotik rejim, bir çox mütərəqqi İran ziyalılarının bu məktəb ətrafında birləşməsini təmin edirdi. Onlardan biri də Əli Nəzmi idi.

Əli Nəzminin Azərbaycanın bədii təfəkküründəki yerini və rolunu M.Məmmədov belə səciyyələndirir: "Əli Nəzmi mollanəsrəddinçi şairlər sırasında üslubca Sabirə ən yaxın satiriklərdən biri idi. Mövzu, mütərəqqi ictimai ideya, satirik dil və üslub xüsusiyyətləri cəhətdən bu cəhətləri nəzərdə tuturdu".

Fəlsəfə üzrə fəlsəfə doktoru Rabil Mehdiyev yazır: "Ə.Nəzmi yaradıcılığı səthi yanaşma, belə bir yanlış mövqenin yaranmasına gətirib çıxara bilər ki, mütəfəkkir dövrü üçün problemlərini, sadəcə, qələmə almış, başqa sözlə, təsviriliklə məşğul olmuşdur. Bu, tamamilə yanlış mövqe olub diletant münasibətin nəticəsi ola bilər. Belə ki, Ə.Nəzmi yaradıcılığının ümumnəzəri təhlili göstərir ki, o, epoxasının sosial ziddiyyətlərinin passiv təsviri ilə kifayətlənməyib, onları doğuran səbəbləri, bu səbəbləri şərtləndirən qanunauyğunluqları dürüst müəyyənləşdirmişdir. Bunun nəticəsidir ki, onun irsi maarifçilik, təşəbbüskarlıq zəminində inkişaf etmiş, ictimai problemlərdən çıxış yolları, mütərəqqi ideyalar təbliğ etmişdir. Burada diqqəti cəlb edən digər mühüm faktor



Ə.Nəzminin müqayisəli təhlil metodundan bəhrələnərək, ictimai sferadakı kataklizmləri müqayisəli şəkildə təqdim etməsidir. Misal üçün, "Qız nədi, məktəb nədi, ey qızım axmaqlama. Biz deyilik ki, cuhud, erməni sarsaqlama" deyən mütəfəkkir bir sıra sosial məsələləri ümumiləşmiş şəkildə qaldırır. Burada birinci aspekt qızların təhsil, bütövlükdə, ictimai hüquqsuzluğudursa, digər tərəf başqa millətlərin nümayəndələrinin qızlarının maariflənmək imkanını, beləliklə tərəqqiyə can atmalarını göstərməkdir.

Ə.Nəzmi irsində sosial problemlərin geniş spektrində qadın gender məsələsi xüsusi çəkiyə malikdir. Bunun da əsas problemin Azərbaycan cəmiyyəti üçün ənənəvi olması, bütün dövrlər üçün aktuallıq kəsb etməsidir. Belə ki, ictimai həyata dair düşüncələrini bədii şəkilə gətirən fikir sahibləri, bu məsələlərə müraciət etmək zərurəti ilə üzləşirdilər. Ə.Nəzmi də sosial sifariş kimi çıxış edən qadın problemlərinə, gender aspektinə böyük diqqət yetirmişdir. Konkret nümunələrə istinad edərək, deyilənləri əsaslandırmaq məqsədəuyğun olardı.

"Hər həqdə yeksan olacaqdır kişi-arvad" deyən Əli Nəzmi cəmiyyətdə gender balansının gözlənilməsini bir ideya kimi irəli sürmüşdür. Qadın-kişi bərabərliyinin gözlənilməsini Ə.Nəzmi mücərrəd təsəvvür etməyib, buna aparan yolu da aydın göstərmişdir. Belə ki, qadınların kişilər ilə eyni haqlara malik olmasını mütəfəkkir birincilərin maariflənməsində, cəmiyyətə daha fəal inteqrasiyasında görür. "Hətta olacaq Zalxa da, Məsumə də azad, qızlar gedəcək məktəbə, çarşaf olaraq yad". Bu beytdən göründüyü kimi, Ə.Nəzmi cəmiyyətdə təkamül istəyində olmuş, insanların təfəkküründə yeniləşməyə böyük inam bəsləmişdir. Birmənalıdır ki, həmin dövrdə qadınların hüquqlarının təsbiti, bütövlükdə, toplumun gəlişməsindən birbaşa asılı idi. Başqa sözlə, ənənələrin hakim olduğu bu epoxada qadın haqqının güclü cins tərəfindən baş verdiyindən, onun gözlənilməsi də həmin təbəqədən gözlənilməli idi. Bu məsələlərin problematikasını düzgün dəyərləndirən Ə.Nəzmini fəlsəfi duyumlu mütəfəkkir adlandırmaq onun irsinə verilən dəyər kimi qiymətləndirilməlidir. Belə ki, dövrünün problemlərini əlahiddə deyil, kompleks, ümumcəmiyyət kontekstində nəzərdən keçirməklə Ə.Nəzmi təkcə və ümuminin, qanunauyğunluqlardan irəli gələn faktorlar ilə təsadüfi meyillərin dialektikasını işləyə bilmişdir. Qızların-gələcək insan tərbiyəçilərinin elmə, təhsilə həsrət qalmalarını ictimai problem kimi səciyyələndirən Ə.Nəzmi onların maariflənməsini cəmiyyətdəki bir çox qüsurların aradan qaldırılmasının mühüm şərti kimi dəyərləndirir.

Fəlsəfə elmləri doktoru Dilarə Müslümzadə ənənəvi dəyərlərin rolu haqqında yazır: "Azərbaycanda müasirləşdirilməyə istiqamət, vətəndaş şüuru necə müasirləşməlidir, vətəndaş cəmiyyətinin formalaşması hansı yolla davam etdirilməlidir və orada ənənəvi dəyərlər hansı yeri tutmalıdır kimi suallara maraq doğurmuşdur.

Vətəndaş şüuru və ənənəvi dəyərlər problemi fəlsəfədə, sosiologiyada və etikada ən mürəkkəblərdən biridir. Belə ki, yeni zamanın ənənəsi, vətəndaş cəmiyyəti üçün ənənəlilik və vətəndaş cəmiyyətinin formalaşmasına gec keçən ölkələr üçün ənənəlilik mövcuddur və buna görə də ənənə burada Avropa ölkələri ilə müqayisədə fərqli dərk edilir. Məhz bu səbəbdən, biz həmin problemin ziddiyyətinin çətinliklərini tezis şəklində əks etdirmək istərdik.

Birincisi, müasir dövrdə ənənə çox vaxt qorunması vacib olan dəyər kimi qəbul edilir, hətta bir çoxları elə hesab edirlər ki, o, qloballaşma proseslərində birliyə öz eyniliyini qoruyub-saxlamağa imkan verəcək. Lakin qloballaşma şəraitində bir çox eyniliklərin fərdiliyində uyğunlaşma prosesi artır, eyniliyin labirintində azad seçimdə tələbat yüksəlir. Burada ənənə dəyər kimi nəzərə alınmalıdır, amma seçimdə köməklik göstərə bilməz.

İkincisi, ənənə, birinci növbədə, sosioloji nöqteyi-nəzərindən öyrənilməlidir. Xalq, ailə, individ ənənələrinin münasibət obyektinə etnososioloji tədqiqatların aparılması lazımdır. Müəyyən hərəkət və fəaliyyətin tələbi kimi sayılan ənənəni, dəyərlər kimi qəbul olunan ənənələrdən fərqləndirmək zərurəti ortaya çıxır. Bu fərq etik-sosioloji tədqiqatların köməkliyi ilə araşdırılmalıdır.

Üçüncüsü, vətəndaş dəyərlərinin və vətəndaşdan öncəki dəyərlərin əlaqələrinin müqayisəli təhlilini aparmaq lazımdır. Avropa təcrübəsindən fərqli olaraq, bizim ənənəvi dəyərlərimiz heç də həmişə onlarla müntəzəm bağlı deyildir. Məsələn, Avropada vətəndaş cəmiyyətinin formalaşma dövründə bir çox ölkələrdə din milli kontekstə daxil edilmişdi, ən azı, qulluqlar milli dildə aparılırdı (İngiltərədə - anqlikanlıq, Fransada - hugenotluq, Almaniyada - protestanlıq və s).

Latın dilinin və dinin dəyişməz şəkildə qorunub-saxlanıldığı Avropa ölkələrində vətəndaş cəmiyyəti gec formalaşmışdır (İtaliya, İspaniya). Bu ölkələrdə universitetlərin hələ XII, XIII əsrlərdə fəaliyyətə başlamaları da bu vəziyyəti aradan qaldıra bilmədi".

Ə.Nəzmi haqlı olaraq, bu qənaətdə idi ki, qızların təlim-tərbiyəsi yalnız xalqın mövcud ənənələri çərçivəsində deyil, həm də məktəbdə, təhsil prosesində aparılmalıdır. Başqa sözlə, qızlar geniş dünyagörüşünə malik olmalıdılar ki, onların tərbiyəçisi olacağı uşaqları da müasir tələblər çərçivəsində şəxsiyyət kimi formalaşsınlar.

Burada diqqətəlayiq hesab etdiyimiz digər aspekt qızların maariflənməsinə həm də bütövlükdə, ictimai münasibətlər sisteminin yeniləşməsi, daha humanist ruhda təşəkkül tapması prizmasından baxılmasıdır. Ə.Nəzmi belə düşünməkdə yanılmırdı ki, zərif təbəqənin təfəkküründə baş verəcək təkamül cəmiyyətdə harmoniya yaradılmasının özəyi ola biləcək ailədaxili qarşılıqlı anlaşmanın əsas şərtlərindən biridir. Dərindən düşünüb mahiyyətə vardıqda bu tezisin klassik səciyyə daşıdığı, nəinki Ə.Nəzminin fəaliyyət göstərdiyi epoxada, eləcə də, sonrakı dövrlər üçün aktuallığını hifz etdiyi birmənalıdır. Bu aşkar faktdır ki, ailədaxili münasibətlər kompleksi tərəflərin dünyagörüşü səviyyəsindən və bundan irəli gələn daxili mədəniyyətindən birbaşa asılıdır. Bu baxımdan, əgər zərif cinsin təmsilçiləri zor prinsipindən əziyyət çəkən tərəf olmaqla yanaşı, gələcək ailə başçılarının - ərlərin (oğulları) tərbiyəçiləri kimi mühüm sosial funksiya daşıyırlar. Ə.Nəzmi bunu nəzərə alaraq cəmiyyətin tərəqqisini qızların təhsili və maariflənməsi ilə əlaqələndirir.

Beləliklə, deyilənlərin ümumiləşməsi kimi qeyd etmək olar ki, Ə.Nəzmi Azərbaycan cəmiyyəti üçün həmişə aktuallığını saxlayan qadın hüququ, gender tarazlığı problematikasını təkcə yaşadığı dövrün kontekstində deyil, bütün dövrlər üçün səciyyəvi ola biləcək aspektdə işıqlandırmışdır. Məhz bu xüsusiyyətlər Ə.Nəzminin klassik müttəfəkkir kimi səciyyələnməsinə əsas verir.

**Vahid Ömərov,**
**fəlsəfə yzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 25 sentyabr


## Təngnəfəslik zamanı təbii vasitələr



Bəzən bir neçə mərtəbə çıxdıqda və ya bir neçə metr getdikdə təngnəfəsliklə üzləşənlər olur. Şübhəsiz ki, bu, ilk növbədə, ürək-damar sistemində yaranan problemin əlamətidir. Hansı üsullardan istifadə etməklə bu sahədə olan problemi aradan qaldırmaq olar?

Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-kardioloqu Nərgiz Məmmədova AZƏRTAC-a müsahibəsində həmin hallarla üzləşənlərin istifadə edə biləcəyi bir neçə resept haqqında məlumat verib .

Onun sözlərinə görə, heyva şirəsi, quru əncir suyu və ılıq hala gətirilmiş üzüm şirəsi təngnəfəsliyə qarşı istifadə olunan ən təsirli təbii vasitələrdir. Xörəkdə darçın işlətmək nəfəs yollarını genişləndirir, kərəviz yemək isə bu orqana faydalı təsir göstərir. Zəfəran ağciyərləri möhkəmləndirir və nəfəsalmanı genişləndirir.

O, bununla əlaqədar daha bir neçə sadə üsul haqqında danışıb: "Bir litr alma sirkəsinin içərisinə yarıya qədər şam ağacının qoz boyda təzə qozaları tökülür, 10 gün saxlanılandan sonra qozalar çıxarılır. Hazır sirkədən gündə iki dəfə səhər-axşam 1 xörək qaşığı 1 stəkan suya qarışdıraraq içilir.

Üç xörək qaşığı şam qozası üç stəkan suda dəmlənilir, gündə üç dəfə yeməkdən əvvəl bir stəkan içilir. Bu tərkibin varikoz və daxili göbələk əleyhinə təsiri də var.

Təngnəfəsliklə üzləşənlərin cirə yeməsi də faydalı hesab olunur. Onun süsən kökü ilə qaynadılıb içilməsi daha xeyirlidir. Aptek çobanyastığı da eyni təsirə malikdir. Badam yağını bal, mum və gül yağı ilə qarışdırıb istifadə etmək, eləcə də təzə süd içmək məsləhətdir. Bu sahədə ən yaxşı vasitələrdən biri də dəvə südüdür".

## Poqba Mourinyonu tənqid etdi: "Daha bəsdir!"

"Mançester Yunayted"in futbolçusu Pol Poqba komansının oyun üslubunu tənqid edib. Qol.az-ın Britaniya mətbuatına istinadən yaydığı xəbərə görə, fransalı yarımmüdafiəçi daha çox hücum etməli olduqlarını deyib: "Doğma meydanda oynayan zaman çox hücum etməliyik. Biz hücumda oynamaq üçün burdayıq. Rəqiblər "Mançester Yunayted"in ard-arda belə oynayacağını görəndə qorxacaq. "Velverhempton"la matçda da səhvimiz bu idi. Evimizdə 3 matç oynamışıq və cəmi 4 xal qazanmışıq. Daha bəsdir!"




O, hücumda çox hərəkətli olmadıqlarını bildirib: "Amma bunu mən deməməliyəm. Çünki oyunçuyam. Mənim fikrim budur. Daha çox və daha yaxşı hərəkət etməliyik".

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat-informatika müəllimliyi üzrə IV kurs tələbəsi Bayramova Zəhra Qorxmaz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin IV kurs tələbəsi Rzayeva Elnarə Eldar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Turizm və Menecment Universitetinin "Xidmət mühəndisliyi" fakültəsinin III kurs tələbəsi Mütəllibov Cavad Asif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Azərbaycan millisi 3-cü ardıcıl qələbəsini qazanıb



İtaliyanın Siyene şəhərində davam edən Polo üzrə Avropa Çempionatında bu gün 3-cü turun oyunları keçirilib. SİA-nın verdiyi məlumata görə, Slovakiya komandası ilə qarşılaşan Azərbaycan milli koman-dası növbəti uğura imza atmış və qələbə seriyasını davam etdirib. Milli yığmamız rəqiblərini 11:7 hesabı ilə məğlub edərək yarışın favoritləri sırasında əsaslı olaraq yer tutmalarını bir daha nümayiş etdiriblər. Slovakiya yığmasını məyus edərək milli yığmamızı turnirin fi-nalının astanasına yüksəldən idmançılarımızın arasında Tərlan Qurbanəliyev və Əli Rzayev xüsusilə faydalı oyun göstəriblər. Polo üzrə Avropa Çempionatının 28 sentyabr tarixində baş tutacaq 4-cü turunda milli yığmamız hazırki Avropa çempionu İrlandiya komandası ilə qarşılaşacaqdır.

## Devid Bekhem Zinəddin Zidana baş məşqçilik təklif edib




İngiltərə millisinin sabiq futbolçusu Devid Bekhem fransalı Zinəddin Zidanı sahibi olduğu ABŞ-ın "İnter Mayami" komandasının baş məşqçisi postuna gətirmək istəyir. "The Mirror" yazır ki, Bekhem İspaniyanın "Real Madrid" komandasında birgə çıxış etdiyi 46 yaşlı mütəxəssisi öz klubunda görməkdə maraqlıdır. Qeyd edək ki, "İnter Mayami" 2020-ci ildən ABŞ və Kanadanın ən yüksək liqası sayılan MLS-də mübarizə aparacaq. Ötən mövsümün sonunda "Real Madrid"in baş məşqçisi postundan istefa verən Zidan hazırda işsizdir.

## UEFA "Qarabağ"ın hesabına 4 milyon 35 min 740 avro vəsait köçürüb




Avropa Liqasında iştirakı və son 10 ildə uğurlu çıxışına görə "Qarabağ" klubunun hesabına UEFA tərəfindən 4 milyon 35 min 740 avro maliyyə vəsaiti köçürülüb. Bu məbləğin 2 milyon 750 min avrosu Azərbaycan təmsilçisinin Avropa Liqasındakı iştirakına görə, 1 milyon 285 min 740 avro isə əmsalların sıralamasına əsasən son 10 ildəki performansına görə verilib.

## Avroliqada klub sayı 48-dən 32-yə endiriləcək




UEFA Avropa Liqasının qrup mərhələsində iştirak edən klubların sayının 48-dən 32-yə endiriləcəyi rəsmən təsdiqlənib. Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, bu barədə Avropa Klublar Assosiasiyasının və "Yuventus"in prezidenti Andrea Anyelli məlumat verib. O, Çempionlar Liqası və Avropa Liqasından sonra klublar arasında üçüncü yarışın təşkili üçün bu addımı atmağı düşündüklərini vurğulayıb: "Üçüncü yarışın üzərində işləyirik. Bu, klublar üçün çox yaxşı turnir olacaq. Onların Avropa yarışlarına qatılma şansları daha çox olacaq. UEFA ilə biz Avropa Liqasında komandaların sayının 48-dən 32-yə endirmək məsələsinə baxırıq.

Biz bu fantastik idman növündə ən böyük balansı istəyirik. Çünki futbol dünyada ən gözəl idman növü olaraq qalır". Qeyd edək ki, Avropada üçüncü klub turnirinin 2021/22 mövsümündən başlanması gözlənilir. Məhz həmin mövsümdən də Avroliqada iştirakçı komandaları sayı 48-dən 32-yə enəcək.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**